QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 217 (5937) **23 noyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Xalq tarixi unutmur!




5

**"AXC-Müsavat hakimiyyəti Heydər Əliyevin nüfuzundan o dərəcədə qorxurdu ki..."**



9

**"Soros" fondunun Ermənistandakı fəaliyyəti respublika üçün ciddi təhlükədir**



3

**"Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu foruma gəlişi tədbirin əhəmiyyətini bir daha vurğulayır"**



# Xalq tarixi unutmur!

***Sözsüz ki, hər bir ölkə uğurlu nəticələrə o ölkəyə rəhbərlik edən liderin düşünülmüş siyasəti nəticəsində nail olur. Bu uğurlu siyasətin mərkəzində isə, Azərbaycan vətəndaşı dayanır. Son 16 il müddətində daima xalqla birbaşa təmasda olan ölkə Prezidenti İlham Əliyev daima sadə vətəndaşlara söykənir: "Mən bütün azərbaycanlıların prezidentiyəm" şüarını gerçəyə çevirir.***



*Prezident İlham Əliyev: "Bugünkü reallıqları düzgün təhlil etmək, bu reallıqlara düzgün qiymət vermək üçün biz bu acı dövrü yaddan çıxarmamalıyıq"*

Bütün bunlar, bir daha sübut edir ki, Azərbaycan dövləti və Prezidenti daim onların yanındadır və keçirilən müşavirələrdə də məmurları xalqla bir olmağa çağırır və xalqın dərd-səri ilə şərik olmağı tələb edir, məmurlar da bu tələbə işləri ilə cavab verməlidirlər. Çünki Prezident İlham Əliyevin 16 illik Prezidentlik fəaliyyətində həyata keçirdiyi sosial-iqtisadi və siyasi islahatlar müasir Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirib, regional gücünü və qlobal əhəmiyyətini kifayət qədər artırmış olub.

Noyabrın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sumqayıt Dövlət Dram Teatrında şəhərin 70 illiyinə həsr olunmuş tədbirdəki geniş nitqində, bir çox məqamlara toxunaraq, Sumqayıtın qədim tarixə malik olduğunu, şəhər kimi 70 il bundan əvvəl formalaşdığını, xüsusilə də, 1969-cu ildə Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbər seçiləndən sonra bu şəhərə qayğısının əsas mərkəzində də xalq, xalqın dərd-səri ilə şərik olduğunu bildirib. Bəli, bu gün də bu siyasət ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

### "Əsl siyasət konkret real iş görməkdən ibarətdir "

Bax, budur əsl siyasət. Dövlət başçısı İlham Əliyev regionlara səfərləri zamanı çıxışlarında da bu faktoru vurğulayaraq, "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" deməklə, ötən illərdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamların daim xalqın mənafeyinə uyğun həyata keçirildiyini, habelə, verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, gerçəkliyə adekvat olduğunu göstərmiş, bütün illərdə apardığı siyasətin mərkəzində Azərbaycan vətəndaşının dayandığını, nəticədə, böyük uğurlara imza atıldığını söyləyir. Dövlət başçısı, Sumqayıtın 70 illik yubileyində çıxışı zamanı da Ulu Öndər Heydər Əliyevin, məhz XALQ-HEYDƏR birliyinin nəticəsində Azərbaycan dövlətinin, Azərbaycan xalqının bu rəzil dövrdən xilas olduğunu vurğulayıb: "Bu gün, noyabrın 21-i Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaranması günüdür. Çünki o vaxt özünü demokrat adlandıran, hakimiyyəti qanunsuz yollarla zəbt etmiş satqın AXC-Müsavat hakimiyyəti imkan vermədi ki, Yeni Azərbaycan Partiyasının təsis qurultayı Bakıda keçirilsin. Vətənpərvər insanlar, Heydər Əliyevi dəstəkləyən insanlar, ziyalılar Naxçıvana gedib soyuq, işıqsız şəraitdə, - hər on dəqiqədən bir işıqlar kəsilirdi, - Yeni Azərbaycan Partiyasını təsis etdilər. Artıq Azərbaycanın yeni dövrü başlamışdır. Məhz Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını dövlət bayrağı kimi ucaltdı və Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırdı ki, onlar da eyni addımı atsınlar. Onlara hələ bir neçə ay lazım oldu və artıq görəndə ki, Sovet İttifaqı çökür, ondan sonra bunu etdilər".

### "Əgər Heydər Əliyev gəlməsəydi, həm Azərbaycan dağılacaqdı, həm də o antimilli AXC-Müsavat dəstəsi öz cəzasını alacaqdı"

Prezident İlham Əliyev 1992-ci il AXC-Müsavat dövründə baş verən tarixi unutmamağı və gənclərin bu tariximizin rüsvayçı dövrünü unutmamalarını tövsiyə edib: "Biz bu tarixi yaddan çıxarmamalıyıq və gənclər bu tarixi bilməlidirlər. Bugünkü reallıqları düzgün təhlil etmək, bu reallıqlara düzgün qiymət vermək üçün biz bu acı dövrü yaddan çıxarmamalıyıq. Elə etməliyik ki, gənclər də bunu bilsinlər, hesab etməsinlər ki, bugünkü inkişaf, bugünkü tərəqqi göydən düşüb. Bilsinlər ki, biz buna qanımız, canımız bahasına nail olmuşuq. Biz tariximizin ən rüsvayçı səhifələrini də vərəqləməliyik. Ona görə ki, o rüsvayçı dövr təkrarlanmasın".

Bu gün ölkədə aparılan uğurlu kadr siyasətinə və genişmiqyaslı islahatlara qarşı, guya "tənqidçi mövqe"dən yanaşırlar. Lakin həmin dırnaqarası tənqidçilərin kim olduqlarını xalq yaxşı xatırlayır. AXC-Müsavat cütlüyünün o zamankı başıpozuq dəstələri həm dövləti, həm də xalqı iflasa doğru sürükləyirdilər. Heç bir elmi, siyasi və s. cəhətdən savadları olmayan ünsürlərin bu gün uğurlu kadr islahatları barədə sərsəmləmələri, əslində, onların, həqiqətən də, küçə təfəkküründən ayrıla bilmədiklərinin real göstəricisidir.

Məhz bu baxımdan, dövlət başçısı Sumqayıtın 70 illiyi ilə bağlı keçirilən görüşdə AXC-Müsavatın 1992-ci ildə hakimiyyəti qanunsuz yollarla zəbt edərək, Azərbaycanı uçuruma apardığı dövrə toxunaraq bildirib ki, əgər Ulu Öndər Heydər Əliyev gəlməsəydi, Azərbaycan dağılacaqdı: "1992-ci ildə hakimiyyəti qanunsuz yollarla zəbt etmiş o antimilli dəstə, Azərbaycanı uçuruma aparırdı. Azərbaycan əldən gedirdi. Yenicə bərpa edilmiş müstəqillik əldən gedirdi, ölkədə xaos, anarxiya, talançılıq, oğurluq, özbaşınalıq, böhran hökm sürürdü. Ermənilər orada torpaqlarımızı işğal edirdi, Xalq Cəbhəsi isə vətəndaş müharibəsinə start vermiş və Gəncə şəhərini bombalamağa başlamışdı. Vətəndaş müharibəsi ən ağır müharibədir. Çünki qardaş qanı axıdılır. Ona da getdilər ki, öz laxlamış hakimiyyətlərini qoruya bilsinlər. Görəndə ki, qoruya bilmirlər, Heydər Əliyevə müraciət etdilər ki, gəl, bizi xilas elə. Yalvarırdılar, mən bunun şahidiyəm. Üç dəfə təyyarə göndərmişdilər ki, bizi xilas elə, çünki artıq gəlirdilər bunları öldürməyə, yaxud da ki, yıxmağa. Qaçıb gizləndilər, bəziləri guya vəzifələrini dondurdular. O vaxt belə cəfəng ifadələr işlədilirdi. Əgər Heydər Əliyev gəlməsəydi, həm Azərbaycan dağılacaqdı, həm də o antimilli AXC-Müsavat dəstəsi öz cəzasını alacaqdı. Yəni Heydər Əliyevin humanistliyi onları layiq olduqları bu cəzadan xilas etdi".

### "Bu tarix yaddan çıxmamalıdır"

Prezident İlham Əliyev sözügedən görüşdə, onu da vurğulayıb ki, bu tarixin yaddan çıxarılması mümkünsüzdür: "Baxın, Azərbaycan xalqı hansı rəzil dövrdə yaşayırdı. Baxın, kimlər idi. Mən bir daha deməliyəm ki, yaddan çıxmasın, gənclər də bilsin".

Dövlət başçısı həmin dövrdə naşı ünsürlərin hakimiyyətdə olduğunu xatırladaraq, onların dövlətin təməllərini sarsıtdıqlarını bildirib.

Və bu faktoru xalq yaxşı xatırlayır. Məhz ölkə başçısının dediklərindən də, belə nəticəyə gəlmək olar ki, həqiqətən də, o dövrdə ölkəyə rəhbərlik edən zəif, iradəsiz, heç vaxt, hətta kiçik bir idarənin rəhbəri olmadığını, sadəcə, küçələrdə, orada-burada çığırıb-bağıran Əbülfəz Elçibəy prezident olmaqla ölkəni uçuruma apardı. Kimlər idi onlar? Dövlət siyasətində və kadr məsələlərindən uzaq olan Ə.Elçibəy yaramaz adamları - mövsümi ticarətlə məşğul olan qarpız alverçisi Pənah Hüseyni baş nazir təyin etdi. Bu faktı da vurğulamaq yerinə düşər ki, "otkat" sözü bizim lüğətimizə elə P.Hüseynin dövründə daxil edildi. P.Hüseynin məqsədi ölkəni talan etmək, onun sərvətini oğurlamaq, hətta tramvay xətlərini belə kəsdirib İrana göndərməklə, pul əldə etmək idi. O ki qaldı parlamentin sədrinə, o da, on bir il aspiranturada oxusa da, dissertasiyanı müdafiə edə bilməyən uğursuz aspirant, biliksiz, savadsız, əli xalqın qanına bulaşmış İsa Qəmbər, komsomolda karyerist kimi hansısa bir vəzifəyə sahib olmaq istəyən bütün tarixi satqınlıq tarixi olan flüger Əli Kərimli dövlət katibi olmaqla komsomolçuları, öz partiya himayədarlarını, ondan sonra Xalq Cəbhəsini, sonra da Əbülfəz Elçibəyi satmaqla onun xəstələnməsindən və zəhərlənməsinə ən çox sevinən də o idi.

Ardı Səh. 3

# Xalq tarixi unutmur!

Əvvəli-Səh-2

**"Şuşa əldən getsə, başıma bir güllə vuracağam".**

Sözügedən görüş zamanı dövlət başçısı adi riyaziyyat müəlliminin gəlib müdafiə naziri kürsüsündə oturan Rəhim Qaziyevin cinayətkar və satqın olduğunu bildirib: "Nazirlərə fikir verin, kimlər idi? Müdafiə naziri riyaziyyat müəllimi, savadsızın biri, demaqoq, küçə adamı. Nə ilə yadda qaldı? Şuşanı ermənilərə satdı. O, Şuşanı birinci tərk etdi. Özü demişdi ki, - o kadrlar var, tarix hər şeyi saxlayır, arxivlər var, - Şuşa əldən getsə, başıma bir güllə vuracağam. Yenə də meydanlarda sülənir, özünü elə aparır ki, guya heç kim bilmir, bunun keçmişi nədir. Bax, belə bir adam müdafiə naziri ola bilərdimi? Belə bir adam bizim ərazi bütövlüyümüzü qoruya bilərdimi? Mən hələ onun biznes tərəfini demirəm. Burada yığdıqları pulları Moskvaya daşıyırdı. Orada özü üçün böyük biznes qurmuşdu. Lazım olarsa, bu barədə də məlumat veriləcək. Mən 2004-cü ildə onu əfv etdim. Çünki əsaslı olaraq, ömürlük cəzaya məhkum edilmişdi. Şuşanı satana qarşı gərək o cəza veriləydi. Bax, ona görə bizim torpaqlarımız işğal altına düşmüşdü. Mən humanistlik göstərdim, onu əfv etdim. Bax budur, bu gün də bu yaramazlar öz çirkin əməllərini davam etdirmək üçün min bir oyundan çıxırlar".

**"Vəzifə sahibi ola-ola mühafizəçilərlə gəlib, jurnalisti döyüb və bununla da, fərəhlənirdi"**

Yadımdadır, o dövrdə belə yaramazlar təyin olunduqları vəzifələrinin nədən ibarət olduğunu da bilmirdilər. Elə daxili işlər naziri işləyən ləyaqətsiz İsgəndər Həmidovun, öz doğma rayonunu müdafiə etməyə qadir olmadığı halda, jurnalistləri döyməsi tarix olaraq qalır və heç vaxt da unudulmayacaq. Prezident İlham Əliyev görüş zamanı tutarlı faktlarla həmin tarixi bir daha diqqətə çatdıraraq, bu gün də belə yaramazların öz çirkin əməllərindən əl çəkmədiklərini vurğulayıb: "Daxili işlər naziri, nə ilə seçilirdi? Vəzifə sahibi kimi gedib canlı efirdə jurnalisti döymüşdü. Sən bir adi adam kimi əgər kiməsə qarşı nəsə eləsəydin, tutaq ki, sənə toxunublar, mən deyərdim ki, ola bilər, ləyaqətinə toxunub, emosiyalarını cilovlaya bilmir. Vəzifə sahibi ola-ola, mühafizəçilərlə gəlib jurnalisti döyüb və bununla da, fərəhlənirdi. Sən gedib doğma rayonunu müdafiə edərdin. Doğulduğun Kəlbəcər əldən gedəndə, işğal altına düşəndə, sən nazir idin. Qaçmısan, siçan kimi gizlənməyə deşik axtarmısan. O vaxt Naxçıvana desant göndərirdi və demişdi ki, Heydər Əliyevin başına güllə vuracağam. Naxçıvanlılar ona elə cavab verdilər ki, qorxusundan bilmirdi hara getsin. Oraya desant da getmədi. Ümumiyyətlə, o vaxt orada çevriliş cəhdi olmuşdu. İndi yenə meydanda sülənir, elə bilir ki, hamının yadından çıxıb".

**"Əgər Heydər Əliyev xalqın tələbi ilə 1993-cü ildə Azərbaycana gəlməsəydi, Azərbaycan dağılacaqdı"**

Yaxud Baş prokuror İxtiyar Şirinovun, xarici işlər naziri Tofiq Qasımov kimi rəzil və satqın ünsürlərin fəaliyyətinə də toxunan dövlət başçısı İlham Əliyev bildirib ki, əgər Heydər Əliyev xalqın tələbi ilə 1993-cü ildə Azərbaycana gəlməsəydi, Azərbaycan dağılacaqdı: "Gəncədə girov götürülmüşdü, Prezidentə həbs əmri vermişdi. Bu da Baş prokuror. Xarici işlər naziri. Heç bir xarici dildə danışa bilməyən, hətta Azərbaycan dilində nə dediyini heç kim başa düşmürdü. Bax, budur xalq cəbhəsi, Müsavat hakimiyyəti. Ona görə biz bu faciəvi vəziyyətlə üzləşmişdik. Əgər Heydər Əliyev xalqın tələbi ilə 1993-cü ildə Azərbaycana gəlməsəydi, Azərbaycan dağılacaqdı. Bunların da, hərəsi qaçıb bir yerdə gizlənəcəkdilər, necə ki qaçıb gizlənmişdilər. Beləliklə, bizim müstəqilliyimiz, XX əsrin əvvəllərində olduğu kimi, yenə də yarımçıq qalacaqdı".

**"Heydər Əliyevin yürütdüyü siyasət bu gün yaşayır və zənginləşir"**

Prezident İlham Əliyev çıxışı zamanı, onu da vurğulayıb ki, bu gün Azərbaycanın uğurlu inkişafa aparılan islahatlarla sıx bağlı olması, məhz Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi olub və bu, əlbəttə ki, tarixi hadisədir: "Heydər Əliyevin hakimiyyətə gəlməsi, əlbəttə ki, tarixi hadisədir. Bu gün biz Onun yolu ilə gedirik. Onun yürütdüyü siyasət bu gün yaşayır və zənginləşir. Əlbəttə, həyat yerində durmur. Qarşımızda yeni çağırışlar, yeni vəzifələr durur və biz bu vəzifələri icra edirik. Çünki bu gün Azərbaycanın uğurlu inkişafı aparılan islahatlarla sıx bağlıdır".

Bəli, bu, həqiqətən də, belədir! Çünki bu gün Cənab Prezidentin, hər zaman olduğu kimi, sözü ilə əməli tam üst-üstə düşür və ölkə Prezidenti İlham Əliyev Cənablarının dediyi kimi: "Hər bir vətənpərvər insan öz ölkəsi ilə, bugünkü Azərbaycan ilə, haqlı olaraq, fəxr edə bilər".

Məhz xalqımız öz LİDERİNƏ arxalandığı üçün öz Prezidenti ətrafında daha da sıx birləşərək, ölkənin inkişaf və tərəqqisinə doğru inamla irəliləyir.

**RƏFİQƏ KAMALQIZI**

# İrina Viner-Usmanova: Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ilə görüşü həyəcanla gözləyirdim

***Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti, Rusiyanın Əməkdar bədən tərbiyəsi işçisi, bədii gimnastika üzrə tanınmış məşqçi İrina Viner-Usmanova Azərbaycan jurnalistlərinə müsahibəsində Gimnastika Mərkəzini ziyarət edən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva ilə görüşü həyəcanla gözlədiyini deyib.***



İrina Viner-Usmanova qeyd edib: "Düzünü desəm, çox həyəcanlı idim, çünki bu Sarayın eklektikası çox rəngarəngdir. Mehriban xanımın təşəbbüsü ilə Bakıda möhtəşəm Gimnastika Arenası tikildikdən sonra çox istəyirdim ki, mənim də bu cür arenam olsun. Mənim arzularım daha böyük dərəcədə yerinə yetdi, çünki Mehriban xanım buraya gəldi və bizim Sarayla tanış oldu".

İki ölkənin gimnastika məktəbləri arasında sıx əməkdaşlıqdan bəhs edən İrina Viner-Usmanova deyib: "Azərbaycanda bədii gimnastikanın çox böyük tarixi var. Vaxtilə orada tanınmış gimnastlar olub. Mehriban xanım bu ənənələri dirçəltmək qərarına gəldi və bunu necə etmək barədə məsləhətləşmək üçün məni dəvət etdi. Biz birlikdə çalışmağa başladıq və Azərbaycan millisi dünya çempionatlarında komanda hesabında üç il fəxri kürsüdə yer tutdu. Çox güclü gimnastlar yetişdi. Aliyə Qarayeva London Olimpiya Oyunlarında dördüncü yeri tutdu, Azərbaycan komandası ilk dəfə qrup hərəkətlərində Olimpiya Oyunlarına vəsiqə qazandı. Deməliyəm ki, Azərbaycanda gimnastika üçün yaradılan şərait öz bəhrələrini verir".

Rusiya və Azərbaycan arasında münasibətlərdən danışan İrina Viner-Usmanova vurğulayıb ki, ölkələrimizin dostluğunun qədim tarixi var. Əfsanəvi məşqçi deyib: "Heydər Əliyev böyük şəxsiyyət idi, Azərbaycan və Rusiya arasında münasibətlərin zəruriliyini bilir, qəbul edir və inkişaf etdirirdi. Hazırda Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva bu siyasəti davam etdirirlər. Mən bilirəm ki, Vladimir Vladimiroviç Putin də Azərbaycanı çox sevir və onunla dostluğu qiymətləndirir. Bizim çox gözəl ikitərəfli münasibətlərimiz var. Mehriban Əliyeva rus mədəniyyətinə bələd olan və onu bilən yüksək təhsilli, yüksək mədəniyyətə malik ziyalı insandır. O, Rusiya ilə ikitərəfli münasibətlərdə böyük rol oynayır. Onun "Dostluq" ordeni ilə təltif edilməsi təkcə Azərbaycan üçün deyil, həm də Rusiya üçün böyük şərəfdir. Qeyd etməliyəm ki, bu il mənə də Azərbaycanın "Dostluq" ordeni verilib və mən buna görə son dərəcə şadam. Bu, bütün Rusiya mətbuatında işıqlandırılıb. Mənim həyat yoldaşım həmin vaxt Özbəkistanın eyni dərəcəli ordenini alıb. Necə deyərlər, ana uşağı dünyaya gətirən deyil, onu tərbiyə edəndir. Özbəkistandan söz düşmüşkən deyə bilərəm ki, məni məhz bu ölkə yetişdirib. Azərbaycan və Özbəkistan isə eyni türk xalqları qrupuna məxsusdurlar. Bu yaxınlarda Azərbaycanda möhtəşəm təşkil edilmiş Dünya çempionatında olduq.

## Bu il Azərbaycana gələn əcnəbilərin 41,2 faizi hava nəqliyyatından istifadə edib



Bu ilin yanvar-oktyabr aylarında Azərbaycana gələn əcnəbilərin 41,2 faizi hava nəqliyyatından istifadə edib. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 58 faizi ölkəmizə dəmir yolu və avtomobil, 41,2 faizi hava, 0,8 faizi isə su nəqliyyatı ilə gəlib.

# Dmitri Savelyev: "Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu foruma gəlişi tədbirin əhəmiyyətini bir daha vurğulayır"



Son bir neçə ildə Rusiya ilə Azərbaycan arasında iqtisadi, siyasi və mədəni sahələrdə münasibətlər intensiv inkişaf edir. AZƏRTAC xəbər verir ki, Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri, RF Dövlət Dumasının deputatı Dmitri Savelyev bu sözləri Moskvada keçirilən Rusiya-Azərbaycan regionlararası forumunun gedişində AZƏRTAC-a müsahibəsində söyləyib.

O qeyd edib ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu foruma gəlişi tədbirin əhəmiyyətini bir daha vurğulayır. D.Savelyev deyib: "Azərbaycan Rusiyanın ən etibarlı, mən deyərdim ki, yeganə etibarlı tərəfdaşıdır. Bu forumun Moskvada keçirilməsi bizim üçün çox vacibdir. Azərbaycan Moskvada keçirilən nəqliyyat forumunda da iştirak edib".

Turizm sahəsində əməkdaşlığın vacibliyini qeyd edən rusiyalı deputat deyib: "Turizm ölkələrimiz arasında ikitərəfli münasibətləri möhkəmləndirməyə kömək edən çox mühüm sahədir. Azərbaycana səfər edən rusiyalıların sayı nə qədər çox olsa, onlar Azərbaycanı bir o qədər çox sevəcəklər. Ruslarda belə bir məsəl var: "On dəfə eşitməkdənsə bir dəfə görmək yaxşıdır". Bir dəfə Azərbaycanda olan rusiyalılar sonra ona laqeyd qalmırlar. Bu, çox vacibdir".

# Azərbaycan-Rusiya əlaqələri yeni müstəvidə

## Mehriban xanım Əliyeva: "Ölkələrimizi möhkəm, qədim dostluq və mehriban qonşuluq əlaqələri birləşdirir"

Bu gün Azərbaycan dünya ölkələri ilə münasibətləri dostluq, qarşılıqlı maraq, hörmət əsasında qurub və bu əlaqələr bir çox sahələri əhatə edir. Azərbaycan dünyanın bir çox ölkələri ilə yanaşı, Rusiya ilə də əlaqələri daim diqqətdə saxlayır. Azərbaycan və Rusiya arasında müxtəlif sahələri əhatə edən müqavilələr və sazişlər imzalanıb. Bu münasibətlər bu gün yeni müstəvidədir. Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə, mütəmadi olaraq, keçirdiyi görüşlər, ikitərəfli və beynəlxalq gündəmdə olan əsas mövzularla bağlı müzakirələr bu əlaqələrin genişlənməsinə gətirib çıxarır. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə vurğulayıb ki, ictimai-siyasi və humanitar sahələrdə Rusiya ilə Azərbaycan arasında siyasi dialoq, fəal parlamentlərarası və regionlararası əməkdaşlıq tənzimlənib. Ticari-iqtisadi, investisiya, elmi-texniki və humanitar əlaqələr və vətəndaş cəmiyyəti təsisatları arasında kontaktlar genişlənir. Təbii ki, Rusiya və Azərbaycanı möhkəm dostluq və əməkdaşlıq ənənələri bir-birinə bağlayır. Dövlətlərin münasibətləri qarşılıqlı faydalı tərəfdaşlıq xarakteri daşıyır, mehriban qonşuluq və bir-birinin marağına hörmət prinsiplərinə əsaslanır. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da, bu münasibətlərin inkişafında xidmətləri kifayət qədərdir. Elə bu günlərdə Rusiya Federasiyasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Rusiya Federasiyası Hökumətinin sədri Dmitri Medvedevlə görüşü bu əlaqələrin davamlı olduğunun daha bir göstəricisidir. Azərbaycanın Rusiya ilə qarşılıqlı münasibətlərə müstəsna dərəcədə böyük əhəmiyyət verdiyini bildirən Mehriban xanım Əliyeva ölkələrimizi möhkəm, qədim dostluq və mehriban qonşuluq əlaqələri birləşdirdiyini diqqətə çatdırıb: "Azərbaycan və Rusiya prezidentlərinin siyasi iradəsi, həmçinin, hər iki tərəfin birgə səyləri sayəsində bu gün münasibətlərimiz strateji tərəfdaşlıq kimi xarakterizə olunur. Fəal siyasi dialoq mövcuddur. Azərbaycan və Rusiya prezidentləri, mütəmadi olaraq, görüşlər keçirirlər. Bu görüşlər, demək olar ki, bütün sahələrdə münasibətlərin inkişafına güclü impuls və dinamizm verir".





### "Azərbaycan iqtisadiyyatına yatırılan Rusiya sərmayələrinin həcmi 4,9 milyard dollardır"

Qeyd edək ki, iqtisadi münasibətlərin inkişafında müsbət dinamika müşahidə olunur. Bu gün ölkəmizdə Rusiya kapitallı 700-ə yaxın şirkət fəaliyyət göstərir. Azərbaycan ilə Rusiya arasında hərbi-texniki əməkdaşlıq da diqqəti çəkəndir. "Şübhəsiz ki, iqtisadi əməkdaşlıq bizim ikitərəfli gündəliyimizin ən mühüm komponentlərindən biridir" deyən Mehriban xanım Əliyeva Rusiyanın Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olduğunu, qeyri-neft məhsullarının idxalı üzrə birinci yeri tutduğunu bildirib: "Əgər biz göstəricilərə baxsaq, onlar böyük nikbinlik doğurur. Biz hər il artım qeyd edirik - əmtəə dövriyyəsi artır. Ötən il 19 faiz artım olub və 2,6 milyard ABŞ dolları təşkil edib. Bu ilin 9 ayında isə, artım 24 faizə çatıb. Yəni, bu göstəricilər olduqca nikbindir. Qarşılıqlı sərmayə qoyuluşu artır. Azərbaycan iqtisadiyyatına yatırılan Rusiya sərmayələrinin həcmi 4,9 milyard dollardır, Azərbaycan Rusiyaya 1,2 milyard dollar məbləğində sərmayə qoyub. Mühüm olan odur ki, hökumətlərarası komissiyanın təhlilinə görə, bu potensialdan tam şəkildə istifadə edilməyib, daha 2-3 dəfə artım mümkündür".

### "Azərbaycanda rus dilinə və rus mədəniyyətinə böyük hörmətlə yanaşırlar"

Mehriban Əliyeva Rusiyadan ölkəmizə səyahət edən turistlərin sayının artığını da bildirib. Ötən il 900 min rusiyalının Azərbaycanda olduğunu diqqətə çəkib və cari ildə həmin göstəricinin artacağının gözlənildiyini deyib. Bu gün Rusiya ilə Azərbaycan arasında münasibətlər qarşılıqlı hörmət və dostluq əsasında davam edir. Təbii ki, Azərbaycanda böyük rus ədəbiyyatına və mədəniyyətinə tükənməz maraq var. Mehriban Əliyeva humanitar əlaqələrdən danışarkən, ölkələrimiz arasında humanitar əlaqələrin, xüsusən, təhsil sahəsində nümunəvidir, deyə fikrini bildirib. Bu gün məktəblərdə rus dilinin öyrənilməsi tam həcmdə saxlanılıb. Bütün bunlar və digər amillər Azərbaycanla Rusiya arasında uğurlu əməkdaşlığına nümunədir. "Azərbaycanda rus dilinə və rus mədəniyyətinə böyük hörmətlə yanaşırlar" deyən Azərbaycanın Birinci vitse-prezidenti ölkəmizdə 338 məktəbdə tədrisin rus dilində aparıldığını, 14 ali məktəbdə rus dilində bölmələr olduğunu, eləcə də, 50 məktəbdə Təhsil Nazirliyinin rus dilinin intensiv tədrisi pilot layihəsinin uğurla həyata keçirildiyin bildirib: "Əlbəttə, ali təhsil səviyyəsində qarşılıqlı fəaliyyət var. Lomonosov adına Moskva Dövlət Universitetinin, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları Azərbaycanda uğurla fəaliyyət göstərir. Düşünürəm ki, bu sahədə də böyük potensial mövcuddur. Ümidvaram ki, gələcəkdə əməkdaşlığımız bütün sahələr üzrə genişlənəcək, ölkələrimizin və xalqlarımızın rifahına xidmət edəcək".

### Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsinə sanballı töhfələr

Qeyd edək ki, Azərbaycan-Rusiya münasibətlərinin inkişaf etdirilməsi və möhkəmləndirilməsindəki xidmətlərinə görə, Rusiya Prezidenti Vladimir Putinin Fərmanı ilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiya Federasiyasının "Dostluq" ordeni ilə təltif olunub. Humanist, xeyriyyəçi layihələrin təşəbbüskarı kimi nüfuz qazanan Mehriban Əliyeva çoxşaxəli fəaliyyəti və genişmiqyaslı layihələri ilə beynəlxalq aləmdə böyük nüfuza malikdir. Mehriban Əliyeva təkcə Azərbaycanda deyil, bir sıra məkanlarda geniş aksiyalar həyata keçirir. Bu humanitar və mədəni tədbirlər, artıq beynəlxalq məkana bəlli olan həqiqətdir. Azərbaycanın, eləcə də, ümumdünya mədəni irsinin qorunmasında "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi maraq doğuran və əhəmiyyətli tədbirlər sırasındadır. Layihə çərçivəsində müsəlman məscidləri ilə yanaşı, xristian kilsəsi də bərpa edilib, Azərbaycanda yaşayan yəhudi uşaqları üçün məktəb və mədəni mərkəz inşa olunub. Avropada Versal Sarayının memarlıq abidələrinin, kafedral kilsənin vitrajlarının bərpasında, bir sıra digər layihələrdə də təşəbbüskar olaraq iştirak edib. Bütün bunlar Azərbaycanda tolerantlığın, dözümlülüyün, dünya mədəniyyətlərinin rəngarəngliyinə hörmətin qədim və möhkəm kökləri olduğunu özündə ehtiva edir. Bu, fondun həyata keçirdiyi mühüm siyasətidir. Heydər Əliyev Fondu xristian aləminin incəsənəti, mənəvi dəyərləri, onun mədəniyyətinin daha da nümunəvi tərzdə parlamasına öz töhfəsini verir. Azərbaycanda bütün dövrlərdə, ictimai-siyasi quruluşdan asılı olmayaraq, müxtəlif dillərdə danışan, müxtəlif dinləri təmsil edən insanların sülh, əmin-amanlıq və qarşılıqlı hörmət şəraitində bir ailə kimi yaşadığını çıxışlarının birində bildirən Mehriban xanım Əliyeva "Bu gün də çoxkonfessiyalı və çoxmillətli Azərbaycan bu ənənələrə sadiqdir və bu, ən böyük sərvətlərdən biridir" deyib.

Bu görülən işlərin məntiqi olaraq, bu cür mühüm layihələr Rusiyada da həyata keçirilir. Elə Moskvadakı Xilaskar İsa Məbədində Azərbaycanın Birinci vitse-prezidentinə Rus Pravoslav Kilsəsinə göstərdiyi köməyə və Həştərxan şəhərinin abadlaşdırılmasına qayğısına görə, II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni ilə təltif edilməsi də bu əməllərdən qaynaqlanır. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2012-ci ilin sentyabrında Həştərxanda Rusiya-Azərbaycan Dostluq Körpüsü, 2013-cü ildə Rusiyanın Volqoqrad şəhərində "Volqoqrad-Bakı Dostluq Parkı" istifadəyə verilmişdir.

Onu da, vurğulayaq ki, ictimai, mesenatlıq və xeyriyyəçilik fəaliyyətinə görə, təhsil və mədəniyyət müəssisələrinin dəstəklənməsinə, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsinə sanballı töhfələrinə görə, Azərbaycanın Birinci vitse-prezidenti Rusiyanın "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeninə layiq görülmüşdü. Daha sonra "İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Fəxri professoru" Diplomu və Xatirə nişanı ilə təltif edilib.

Bütün dünyada böyük hörmətə, nüfuza malik olan Azərbaycan birgəyaşayışa, qarşılıqlı əməkdaşlığa töhfələrini verir, prinsipial və ədalətli mövqeyi ilə seçilir. Dostluğun möhkəmlənməsinə, insani dəyərlərə, sülh və əmin-amanlığa, üstünlük verərək, sülsevər siyasətini dünyaya göstərir.

**Nəzakət ƏLƏDDİNQIZI**

# "AXC-Müsavat hakimiyyəti Heydər Əliyevin nüfuzundan o dərəcədə qorxurdu ki..."

***"AXC-Müsavat cütlüyü hakimiyyətdə olduğu dövrdə şiddət və güc ritorikasını cəmiyyətdə onlar kimi düşünməyən hər kəsə qarşı tətbiq edirdi". SİA-nın verdiyi məlumata görə, bunu Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, YAP İcra katibinin müavini Siyavuş Novruzov deyib. S.Novruzovun sözlərinə görə, Prezident İlham Əliyev Sumqayıtın 70 illiyinə həsr olunmuş tədbirdə çıxışı zamanı AXC-Müsavat hakimiyyətinin çirkin əməlləri haqda danılmaz faktları açıqladı.***



S.Novruzov vurğulayıb ki, AXC-Müsavat cütlütyü Ulu Öndər Heydər Əliyevin həm beynəlxalq, həm də ölkədaxili nüfuzundan o dərəcədə qorxurdular ki, onun rəhbərliyi altında yaradılacaq Yeni Azərbaycan Partiyasının təsis konfransını keçirmək üçün Bakı şəhərində yer ayırmadılar: "Məlum olduğu kimi, 500-dən çox nümayəndə olduqca çətin şərtlər altında, blokada şəraitində olan Naxçıvana yollanaraq təsis konfransını orada keçirməyə nail oldular. Onlar hətta Heydər Əliyevin hüquqlarını müdafiə komitəsinin mətbuat konfransına o dövrün daxili işlər nazirinin himayəsində olan "Bozqurd"çuların basqınını təşkil edərək görkəmli akademiklərimiz Fərəməz Maqsudov və Ziya Bünyadova güc tətbiq etmiş, həbsə atmışdılar".

Deputat vurğulayıb ki, ölkədə terror və qorxu mühiti yaratmaq üçün "xüsusi səlahiyyətlər" verilmiş o dövrün Daxili İşlər naziri İsgəndər Həmidovun müxalif partiyaların televiziya debatı zamanı studiyaya etdiyi basqın, müxalif partiya liderinin döyülərək avtomobilin yük yerinə salınması, baş redaktora qəzet yedizdirilməsi, cənub zonasında dinc sakinlərə qarşı həyata keçirilmiş "subtropik əməliyyatı" AXC-nin "demokratik idarəçiliyinin" yalnız bəzi nümunələridir: "Kriminogen durum o qədər gərginləşmişdi ki, başına 10 nəfər silahlı toplayan hər kəs Bakıda və əyalətlərdə hüquq və qanunu əvəz edirdi. İmkanlı şəxslərin evlərinə polis tərəfindən qanunsuz baxışlar həyata keçirilir, bəzən isə açıq şəkildə talanırdı.

Belə idarəçiliyin faciəli nəticələri özünü çox da gözlətmədi. Ermənistanla aparılan müharibədə ciddi məğlubiyyətlər və itkilər ard-arda gəlməyə başladı. 1993-cü ilin aprelində müharibənin sonrakı gedişatına birbaşa öldürücü təsir göstərəcək mühüm strateji əhəmiyyətli Kəlbəcər rayonu itirildi.

Bütün bu faciələrin birbaşa günahkarlarından olan Əli Kərimli indi "cəsarət", "sədaqət" və s. bu kimi ali kateqoriyalardan dəm vurur. Əvvəlcə "sədaqət" barədə. AXC hakimiyyətinin funksionerlərinin böyük əksəriyyəti Azərbaycan Milli Elmlər Akademiyasının elmi işçiləri və ya əməkdaşları idi. Lakin hakimiyyətə gəldikdən sonra ilk işlərindən biri AMEA-nı bağlamaq və ləğv etmək istiqamətində cəhdlər göstərmək oldu. Yalnız ölkənin elmi ictimaiyyətinin ciddi etirazlarından sonra bu üzdəniraq təşəbbüsün qarşısı alındı. Yəqin ki, bu cəhdin səbəbi uzun illər bu qurumda çalışaraq ortaya heç bir sanballı elmi əsər qoya bilməyən cəbhəçilərin bu idarədən almaq istədikləri qisas hissindən qaynaqlanırdı.

Bəzən AXC-Müsavat cütlüyünün hakimiyyətdə olduğu bir ilin bütün əsas problemlərin mənbəyi kimi göstərilməsinə qarşı çıxılır. Halbuki, bəzən nəinki bir il, hətta bir ay və bir həftə belə bir xalqın tarixində taleyüklü rol oynaya bilər. Əli Kərimlinin isə fərdi sədaqət hissini yəqin ki, Azərbaycan cəmiyyətində bilməyən yoxdur. "Xəbərçilik" fəaliyyətinə BDU-da komsomol katibi olduğu zaman rektora göstərdiyi xüsusi xidmətlərlə başlayan bu şəxs dostlarını sataraq özünə karyera quranlardandır. Daha sonrakı mərhələdə mənsub olduğu siyasi təşkilatın qarşısında səcdə etdiyi liderinə xəyanət edərək onun haqqında mətbuata rüsvayedici məlumatlar ötürməyə başladı. Məqsəd onu devirib təşkilat rəhbəri olmaq idi. Sonradan zamanla bu pis vərdişini daha da "inkişaf" etdirərək, öz ölkəsindən qərb dövlətlərinə və beynəlxalq təşkilatlara çuğulçuluq etməyə başladı. Görünür, bu xarakter onda daimidir və atalar demişkən - qozbeli qəbir düzəldər".trend

***Ceyhun Rasimoğlu***

# Azərbaycanın Dövlət Sərhəd Xidməti ilə Bolqarıstanın Daxili İşlər Nazirliyi arasında saziş imzalanıb

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi, general-polkovnik Elçin Quliyev ölkəmizdə səfərdə olan Bolqarıstan Respublikasının Daxili İşlər naziri Mladen Marinovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Dövlət Sərhəd Xidmətinin Aparatında təntənəli mərasimlə qarşılanan Bolqarıstanın Daxili İşlər naziri rəsmi protokola uyğun olaraq Fəxri qonaq kitabında ürək sözlərini yazıb.



Geniş tərkibdə keçirilmiş görüşdə Dövlət Sərhəd Xidmətinin rəisi tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədlərindəki mövcud əməliyyat şəraiti, sərhəd təhlükəsizliyinə olan təhdidlər, o cümlədən Ermənistanın təcavüzü nəticəsində ölkə ərazisinin 20 faizinin və dövlət sərhədlərinin bir hissəsinin işğal altında qalması, bu ərazilərin qeyri-qanuni məqsədlərlə istifadə hallarının davam etdirilməsi qeyd olunub, transsərhəd cinayətkarlıqla mübarizədə həyata keçirilmiş tədbirlər, sərhəd mühafizə sisteminin gücləndirilməsi, maddi-texniki bazanın təkmilləşdirilməsi üzrə görülmüş işlər və əldə olunmuş nailiyyətlər barədə məlumat verilib.

Nümayəndə heyətləri regionda cərəyan edən hadisələr, sərhəd təhlükəsizliyinə olan çağırışlar ətrafında fikir mübadiləsi aparıb, transsərhəd cinayətkarlığın təzahürləri ilə mübarizənin aparılması, sərhəd mühafizəsi və nəzarəti sahəsində praktiki fəaliyyətlərin, aidiyyəti sahələr üzrə təcrübə mübadiləsinin həyata keçirilməsi daxil olmaqla sərhəd əməkdaşlığının inkişaf etdirilməsinin Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında mövcud münasibətlərə əhəmiyyətli töhfə verə biləcəyini vurğulayıblar. Görüş çərçivəsində "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə Bolqarıstan Respublikasının Daxili İşlər Nazirliyi arasında sərhəd məsələləri üzrə əməkdaşlıq haqqında Saziş" imzalanıb.

# Pakistanın ordu generalına Azərbaycanın yibiley medalı təqdim olundu

Pakistan Silahlı Qüvvələrinin Birləşmiş Qərargahında Azərbaycan Respublikasının yibiley medalının təqdim olunma mərasimi keçirilib. SİA-nın verdiyi məlumata görə, bu münasibətlə təşkil olunmuş təntənəli mərasimdə Pakistan İslam Respublikasının Silahlı Qüvvələrinin Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri, ordu generalı Zubair Mahmud Hayat, Pakistan ordusunun generalları, yüksək rütbəli zabitləri və Azərbaycan Respublikasının Pakistandakı səfirliyinin kollektivi iştirak ediblər.

Hər iki ölkənin dövlət himnlərinin səsləndirilməsindən sonra mərasimdə çıxış edən Azərbaycan Respublikasının Pakistandakı səfiri Əli Əlizadə Azərbaycanla Pakistan arasında mövcud olan ortaq bağlardan, səmimi dostluqdan və strateji tərəfdaşlıqdan söhbət açıb, hər iki ölkə rəhbərliyinin diqqət və qayğısı, xalqlarımızın dostluğu nəticəsində təşəkkül tapmış bu qardaşlıq münasibətlərinin müdafiə, təhlükəsizlik, hərbi və hərbi-texniki sahələrinə də sirayət etdiyini bildirib. Səfir hərbi və hərbi texniki əməkdaşlıq sahəsində bir sıra yeni layihələrin, təlimlərin, təcrübə mübadiləsinin həyata keçirildiyini və əlaqələrin yüksələn istiqamətdə inkişaf etdiyini vurğulayaraq, bu əməkdaşlığın gücləndirilməsində hər iki ölkənin Silahlı Qüvvələrinin, o cümlədən Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin və onun sədrinin böyük rolunun olduğunu diqqətə çatdırıb.



Səfir Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin müvafiq sərancamı ilə Azərbaycan Respublikası ilə əlaqələrin inkişafında və gücləndirilməsindəki xüsusi xidmətlərinə görə Pakistan İslam Respublikasının Silahlı Qüvvələrinin Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri, ordu generalı Zubair Mahmud Hayatın "Azərbaycan Respublikası Diplomatik Xidmət Orqanlarının 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yibiley medalı ilə təltif olunduğunu və bu medalı general Zubair Mahmud Hayata təqdim etməkdən böyük məmnuniyyət hissi duyduğunu bildirib.

Pakistan İslam Respublikasının Silahlı Qüvvələrinin Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri, ordu generalı Zubair Mahmud Hayat Pakistanın qardaş Azərbaycanla əlaqələrə xüsusi önəm verdiyini, Dağlıq Qarabağ və Kəşmir məsələsində hər iki ölkənin bir birini daim dəstəklədiyini, Pakistanın Ermənistanı bir dövlət olaraq tanımadığını və BMT qətnamələrinin icrasının qeyd-şərtsiz təmin olunması gərəkdiyini diqqətə çatdırıb. Ordu generalı Zübair Mahmud Hayat Azərbaycana həyata keçirilən səfərlərini, Azərbaycan Respublikasının Prezidenti tərəfindən səmimi qəbul edilməsini, məsləkdaşları ilə görüşlərini xatırladaraq iki ölkə arasındakı hərbi əlaqələrin inkişafından məmnun olduğunu və bu inkişafın davam etdiriləcəyini vurğulayıb. "Azərbaycan Respublikasının Diplomatik Xidmət Orqanlarının 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yibiley medalı ilə təltif olunmasından şərəf duyduğunu bildirən general Zubair Mahmud Hayat, təşəkkürlərinin Azərbaycan Respublikasının rəhbərliyinə və hökumətinə, Azərbaycan Respublikasının Xari İşlər Nazirliyinə çatdırılmasını xahiş edib. Təqdimatdan sonra xatirə şəkilləri çəkilib, Pakistan İslam Respublikasının Silahlı Qüvvələrinin hərbi orkestrinin ifasında Azərbaycan və Pakistanın hərbi marşları, musiqiləri ifa edilib.

# Maksim Oreşkin: "Azərbaycan ayrı-ayrı məhsulların ixracına görə Rusiya bazarında liderdir"




Azərbaycan ayrı-ayrı məhsulların ixracına görə Rusiya bazarında lider mövqedədir. AZƏRTAC xəbər verir ki, bu fikirləri Rusiyanın İqtisadi İnkişaf naziri Maksim Oreşkin Moskvada keçirilən X Rusiya-Azərbaycan Regionlararası Forumunda çıxışında bildirib. Regionlararası forumda Rusiyanın 30 regionundan nümayəndələrin iştirak etdiyini bildirin nazirin fikrincə, bu, Azərbaycan iqtisadiyyatının Rusiyada mövqeyinin möhkəmləndirilməsi üçün böyük perspektivlərə malik olmasından xəbər verir.

M.Oreşkin Rusiyada iki ölkə rəhbərliyi, eləcə də idarə və müəssisələr, regionlar arasında ənənəvi dostluq əlaqələrinin yüksək qiymətləndirildiyini vurğulayıb. Bildirib ki, cari ilin 9 ayı ərzində Rusiya ilə Azərbaycan arasında ticarət dövriyyəsi 26 faiz artıb. Bundan əlavə, pul köçürmələri, turizm və digər sahələrdə də əməkdaşlıq genişlənib. Rusiya rəsmisinin fikrincə, bu, həm də regionlar arasında əməkdaşlığın genişlənməsi sayəsində mümkün olub.

O, ikitərəfli əlaqələrin inkişafında Rusiya və Azərbaycan prezidentləri Vladimir Putin və İlham Əliyevin şəxsi mehriban dostluq münasibətlərinin əhəmiyyətini qeyd edib. Dekabrda Bakıda Azərbaycan-Rusiya Hökumətlərarası Komissiyasının növbəti iclasının keçiriləcəyini, bir sıra mühüm sənədlərin imzalanacağını deyən nazir hazırda həyata keçirilən bir sıra layihələrin, o cümlədən "SOCAR Polymer" zavodu, "Həyat Farm" birgə müəssisəsi, Azərbaycanda açılacaq Həştərxan işgüzar mərkəzi və Həştərxanda fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Biznes Mərkəzi, Bakı-Quba-Rusiya dördzolaqlı yolu və digər layihələrin ikitərəfli münasibətlərin yüksək səviyyəsindən xəbər verdiyini də vurğulayıb.

# YAP Səbail rayon təşkilatının fəalları Bilgəhdə yerləşən pensiya yaşına çatmış şəxslərlə görüşüblər



***Dünən Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının təşkilatçılığı və bir qrup bağça-məktəb müəllimlərinin təşəbbüsü ilə Bilgəhdə yerləşən Pensiya yaşına çatmış şəxslər üçün Sosial Xidmət müəssisəsində yaşayan müharibə və əmək əlilləri ilə görüş keçirilib.***

Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümü münasibətilə gözəl musiqi proqramının və süfrənin təşkil olunduğu tədbirdə partiya fəalları ahıllarla birlikdə yaddaqalan bir gün keçirdilər. Ahıllarla görüşən, səmimi söhbət edən, onların yaşayış şəraiti, gündəlik məişəti ilə yaxından maraqlanan Milli Məclisin deputatı, YAP Səbail rayon təşkilatının sədri professor Şəmsəddin Hacıyev zəngin həyat təcrübəsi olan bu insanlarla və sosial xidmət müəssisəsində onlar üçün yaradılmış gözəl şəraitlə tanış olmaqdan son dərəcə məmnun olduğunu bildirdi.

Ş.Hacıyev ahıllar və veteranlarla bu görüşün Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümünün qeyd olunduğu tarixə təsadüf etməsindən və bu əlamətdar tarixi, məhz xüsusi diqqət və qayğıya ehtiyacı olan yaşlı insanlarla birlikdə qeyd etdikləri üçün çox şad olduğunu bildirərək, diqqətə çatdırdı ki, müstəqil müasir Azərbaycan dövlətçiliyinin qurulmasında və ölkəmizin ictimai-siyasi həyatında müstəsna rolu və yeri olan Yeni Azərbaycan Partiyası öz sıralarında cəmiyyətin bütün zümrələrini, o cümlədən, ahılları və veteranları birləşdirir, onlar partiya sıralarında bu gün də fəal iştirak edirlər. Yeni Azərbaycan Partiyasının təsis olunmasını zəruri edən obyektiv səbəblər, tarixi şərait və müstəqilliyin ilk illərində ölkəmizdə mövcud olan acınacaqlı ictimai-siyasi vəziyyət, hakimiyyət böhranı və təhlükələr haqqında danışan deputat Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövlətçiliyi üçün yerinə yetirdiyi taleyüklü xilaskarlıq missiyalarını xüsusi vurğuladı.

Bugünkü görüşdən məmnunluğunu ifadə edən Ş.Hacıyev xüsusi qayğıya ehtiyacı olan ahıl insanlar və veteranlar üçün dövlət tərəfindən yaradılan şəraitə və görülən işlərə görə ölkə başçısı İlham Əliyevə, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya və fondun birinci vitse-prezidenti Leyla xanım Əliyevaya səmimi qəlbdən təşəkkür etdi və bu sahədəki fəaliyyətlərini yüksək qiymətləndirdi. Deputat YAP Səbail rayon təşkilatının kollektivinin bura mütəmadi baş çəkəcəyini, ahıllar və veteranlar üçün belə özəl günlər təşkil edəcəklərini bildirdi, yaşlılara möhkəm cansağlığı, sağlam və uzun ömür arzuladı.

Çıxış edən pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsinin direktoru Qətibə Əsədova və ahıllar adından danışan sakinlər bu gün onlarla görüşə gələn deputata və qonaqlara təşəkkür etdilər. Dövlət başçısının siyasətini birmənalı dəstəklədiklərini və dövlətin, ölkə başçısı İlham Əliyevin, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın və fondun birinci vitse-prezidenti Leyla xanım Əliyevanın ahıl insanlara olan diqqət və qayğısından razılıqlarını bildirdilər, sosial müavinətlərinin, mütəmadi olaraq, yüksəlməsi üçün minnətdarlıqlarını ifadə etdilər.

Sosial xidmət müəssisəsini ziyarət edən qonaqlar oradan xoş təəssüratlar və unudulmaz xatirələrlə ayrıldılar.

***RƏFİQƏ HÜSEYNOVA***

# BSU-da "Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində" beynəlxalq elmi-praktik konfrans keçirilib



Dünən Bakı Slavyan Universitetinin Beynəlxalq münasibətlər, regionşünaslıq və jurnalistika fakültəsinin təşkilatçılığı ilə universitetdə Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının yaranmasının 100 illiyinə həsr olunmuş "Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində" mövzusunda doktorant, magistrant və bakalavrların



Beynəlxalq Elmi-Praktik Konfransı keçirilib.

Konfransın əvvəlində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransı giriş sözü ilə açan BSU-nun rektoru, professor Nurlana Əliyeva qeyd edib ki, bu konfransın keçirilməsi BSU-nun beynəlxalq əlaqələrinin genişləndirilməsi istiqamətində atdığı növbəti uğurlu addımdır. Konfrans müasir dövrümüz üçün çox aktual olan bir mövzuya həsr olunub və səmərəli fikir mübadiləsinin aparılması, qabaqcıl beynəlxalq təcrübənin təbliğ edilməsi baxımından, mühüm əhəmiyyət kəsb edir. Bu mövzu yalnız müəllim və tələbələr üçün deyil, bütün Azərbaycan cəmiyyəti üçün olduqca vacibdir. N.Əliyeva müstəqillik illərində Azərbaycanın qazandığı uğurları diqqətə çəkib. Qeyd edib ki, müstəqil Azərbaycan Respublikası Ulu Öndər Heydər Əliyevin böyük dühası nəticəsində, dünya birliyinin layiqli üzvünə çevrilib, ölkəmizin beynəlxalq münasibətlər sistemində özünəməxsus yeri və mövqeyi var. Ölkəmiz Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində, böyük inkişaf yolu keçib.

Konfransda Təhsil Nazirliyinin elm, ali və orta ixtisas təhsili şöbəsinin elm sektorunun müdiri, professor Əfqan Abdullayev, təhsil eksperti, professor Şahlar Əsgərov və professor Camal Mustafayev çıxış edərək, konfransın keçirilməsini yüksək qiymətləndiriblər və belə konfransların gənclərin intellekt səviyyəsinin yüksəlməsinə səmərəli təsir göstərdiyini qeyd ediblər.

Konfransın plenar iclasında BSU-nun tələbəsi Elnur Baharov, Həştərxan Dövlət Universitetinin tələbəsi Sabina Velikaya, Karlov Universitetinin tələbəsi Yuliya Svetlova, Qambiya Respublikasının nümayəndəsi Musa Ceesay məruzələrlə çıxış ediblər. BSU-nun elmi işlər üzrə prorektoru, professor Rafiq Novruzov, Beynəlxalq münasibətlər, regionşünaslıq və jurnalistika fakültəsinin dekanı, dosent Şirinbəy Əliyev konfransın keçirilməsi ilə bağlı ətraflı məlumat veriblər.

Sonra konfrans öz işini 9 bölmədə davam etdirib. Bölmə iclaslarında, ümumilikdə, 209 məruzə dinlənilib və müzakirə edilib.

Konfransın sonunda bölmə moderatorlarının hesabatları dinlənilib və müvafiq qərarlar qəbul edilib.

***Zümrüd BAYRAMOVA***

# Siyəzəndə "Seçkidə iştirak etmək vətəndaşlıq borcumuzdur!" mövzusunda dəyirmi masa keçirilib



Siyəzən rayon Gənclər Mərkəzində rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə "Seçkidə iştirak etmək vətəndaşlıq borcumuzdur!" mövzusunda dəyirmi masa keçirilib.

Gənclər arasında seçki prosesinin və seçkilərdə iştirakın təbliği, qarşıdan gələn bələdiyyə seçkilərində rayon gənclərinin fəallığının artırılması, seçkilər zamanı səsvermə hüququndan ilk dəfə istifadə edən gənclərin maarifləndirilməsi və seçkilərdə iştirakının təmin edilməsi məqsədi daşıyan tədbirdə 50-yə yaxın gənc iştirak edib.

Tədbirdə rayon Gənclər və İdman İdarəsinin rəis müavini Vüsal Alışov, 54 saylı Şabran-Siyəzən Dairə Seçki komissiyasının üzvü İxtiyar İsayev, şəhər 2 saylı tam orta məktəbin müəllimi Zərbalı Yusifov və şəhər 3 saylı tam orta məktəbin tərbiyəvi işlər üzrə direktor müavini Telman Məmmədov çıxış edərək, ölkəmizdə gənclərin inkişafı istiqamətində görülən işlər, Siyəzən rayonunun inkişafı ilə bağlı gələcək planlar, ictimai-siyasi həyatın vacib hissəsi kimi seçkilərin əhəmiyyəti, seçkilərin keçirilməsinin qanunvericilik əsasları, bu sahədə qəbul edilmiş hüquqi aktlar, seçki günü səsvermə proseduru və qaydaları haqqında tədbir iştirakçılarına ətraflı məlumat verilib. Bildirilib ki, dekabrın 23-də keçiriləcək bələdiyyə seçkiləri ölkəmizin həyatında mühüm və əhəmiyyətli bir hadisə olacaqdır. Bələdiyyə orqanlarına seçkilərdə gənclərin namizədliklərinin irəli sürülməsi və müdafiəsi istiqamətində irəli sürülən təkliflər təqdirəlayiqdir. Əhali ilə daimi ünsiyyətdə, gündəlik qayğıların mərkəzində olan bələdiyyə idarəetmə sistemində gənclərə meydan verilməsi onların formalaşması, ictimaiyyət arasında tanınmaları və təcrübə toplamaları üçün əhəmiyyətlidir. Qarşıdakı bələdiyyə seçkiləri bunu bir daha sübut etməklə, ölkəmizdə demokratik inkişafın əyani ifadəsinə çevriləcəkdir. Seçkinin vacib məsələ olduğunu bir daha vurğulayan məruzəçilər dekabrın 23-də keçiriləcək bələdiyyə seçkilərində bütün gəncləri fəallıq nümayiş etdirməyə çağırıblar.



Sonda mövzu ilə bağlı maarifləndirici videoçarx nümayiş etdirilib.

***ZÜMRÜD BAYRAMOVA***

# "Bu gün ölkəmizdə ailə, qadın və uşaq hüquqlarının müdafiəsi istiqamətində əsaslı nailiyyətlər əldə olunub"

*YAP İcra Katibliyində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova mətbuat konfransı keçirib*




*Noyabrın 22-də Yeni Azərbaycan Partiyasının İcra Katibliyində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova mətbuat konfransı keçirib.*

Mətbuat konfransında H.Hüseynova bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən aparılan uğurlu siyasətin nəticəsi olaraq bu gün ailə, qadın və uşaq hüquqlarının müdafiəsi istiqamətində əsaslı nailiyyətlər əldə olunmuşdur. Xüsusilə də bu sahədə bir sıra mühüm qanunlar qəbul edilmiş və davamlı islahatlar həyata keçirilmişdir. Nəticədə ölkədə qadın və uşaq hüquqları daha da inkişaf etdirilmiş, bu sahələrdə əhalinin məlumatlılıq səviyyəsi artırılmış, erkən nikahların sayı azalmışdır.

Qeyd edilib ki, qadın və uşaqların hüquqlarının müdafiəsi sahəsində qanunların qəbul edilməsində respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çox böyük rolu olmuşdur. Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan sistemli islahatlar, bölgələrin inkişafına yönəldilən sosial-iqtisadi proqramlar ailələrin, o cümlədən, qadın və uşaqların yaşayışına müsbət təsir göstərir. Nəticə olaraq BMT-nin CEDAW Komitəsi (Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması üzrə Komitə) ölkəmizin sonuncu dövrü məruzəsi ilə bağlı rəyində Azərbaycanda qadın hüquqlarının və gender bərabərliyinin təmin edilməsi sahəsində həyata keçirilən tədbirləri yüksək qiymətləndirmişdir. BMT-nin Dayanıqlı İnkişaf Gündəliyinin qadın hüquqları ilə bağlı 5-ci məqsədinin ölkəmizdə bu sahədə görülən işlərlə 97% üst-üstə düşdüyü müəyyən edilmişdir. Habelə 2011-ci ildən etibarən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı ilə birgə həyata keçirdiyi "Kənd və rayon yerlərində yaşayan qadınların iqtisadi və sosial həyatda iştirakının təşviqatı" texniki yardım layihəsi Avropa İttifaqı tərəfindən səmərəliliyinə və verdiyi töhfələrə görə birinci yerə layiq görülmüşdür.

Ümumiyyətlə bu layihənin nəticəsində 8 Qadın Resurs Mərkəzləri yaradılmış, 145 qadın şəxsi biznesini qurmuşdur. Bütövlükdə Mərkəzlər vasitəsilə altımin beş yüzdən çox üzvü olan güclü qadın şəbəkəsi mövcuddur. Onların fəaliyyətinin davamlılığını təmin etmək məqsədi ilə beş mərkəz Biləsuvar, Salyan, Sabirabad, Neftçala və Masallı QHT kimi rəsmi qeydiyyatdan keçmişdir.

Bildirilib ki, ölkəmiz qadın və uşaq hüquqları sahəsində bir sıra mühüm Konvensiyalara qoşulmuş, bu ilin oktyabr ayında isə "Uşaqların cinsi zorakılıqdan və cinsi istismardan müdafiəsi haqqında" Avropa Şurasının Lanzarotta Konvensiyasını ratifikasiya etmişdir. Yaxın gələcəkdə ölkəmizin həmçinin "Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında" Avropa Şurasının İstanbul Konvensiyasını imzalaması gözlənilir.

H.Hüseynova söyləyib ki, ailə institutunun möhkəmləndirilməsi məqsədilə Ailə, Qadın və Uşaq Problemləri üzrə dövlət Komitəsi digər aidiyyəti qurumlarla birlikdə milli-mənəvi dəyərlərin əhali arasında düzgün təbliği, qadın və uşaq hüquqları sahəsində maarifləndirmənin zəruriliyi, gənc nəslin milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirir. Lakin bütün bunların fonunda ailə institutuna təsir göstərən bir sıra mənfi hallar həm cəmiyyətimiz, həm də dövlətimiz üçün aktual olaraq qalmaqdadır. Bütün dünyada olduğu kimi, son illər nikahların azalması, boşanmaların artması, məişət zorakılığı zəminində xüsusi amansızlıqla qətl hadisələrinin baş verməsi, doğulan uşaqların sayının, ümumnəsilvermə əmsalının aşağı düşməsi, o cümlədən, doğulan uşaqlar arasında cins nisbətinin pozulması ailədaxili münasibətlərin tənzimlənməsi sahəsində bir sıra boşluqların olmasını sübut edir. Bu tendensiyanın davam etməsi gələcəkdə bir sıra demoqrafik problemlərin, eyni zamanda, genefonda mənfi təsirlərin və daha ağır fəsadların yaranmasına səbəb ola bilər. Baxmayaraq ki, bu məsələlər tərəfimizdən dəfələrlə aktuallaşdırılıb, bununla yanaşı istənilən nəticəni əldə etmək üçün hələ çətinliklər mövcuddur.

Məlumat verilib ki, 18 yaşadək nikaha girən qızların sayının ən yüksək həddi 2011-ci ildə olub. Onun sözlərinə həmin dövrdə belə qızların sayı 5 min 138 idisə, Ailə Məcəlləsinə edilmiş dəyişiklik və maarifləmə işlərinin nəticəsində 2012-ci ildən bu göstəricinin azalmasını müşahidə edirik. 2018-ci ildə bu rəqəm 338 olub. Eyni zamanda, 15-17 yaşlı qadınlar tərəfindən doğulan uşaqların sayı da 2011-ci ildə 4 min 392 idisə, 2018-ci ildə bu rəqəm azalaraq 2 min 129 olub. Lakin biz bu sahədə işlərimizi davam etdiririk. Eyni zamanda, qadınların seçkili orqanlarda xüsusilə, bələdiyyələrdə və parlamentdə, habelə yerli icra hakimiyyətlərində təmsilçiliyi artırılmış, qadın sahibkarlığına dəstək gücləndirilmişdir.

Komitə sədri ölkəmizdə qadın sahibkarlığının da inkişaf etdiyini diqqətə çatdırıb. O deyib ki, 2019-cu il aprelin 1-nə olan məlumata görə qeydiyyatda olan qadın sahibkarların sayı 186 min 392 nəfərdir. 2012-ci ildə bu rəqəm 73 min 469 olub. Son yeddi ildə qadın sahibkarların sayı üç dəfəyə qədər artıb.

H.Hüseynovanın sözlərinə görə, son 8 ildə əhalinin hər min nəfərinə nikahların ümumi əmsalı doqquz tam onda yeddidən altı tam onda dördə düşmüşdür. Həmin müddət ərzində isə əhalinin hər min nəfərinə boşanmaların ümumi əmsalı bir tam onda ikidən bir tam onda beşə qədər artmışdır. Boşanma hallarının 57,2%-i tərəflərin xasiyyətlərinin uyğun gəlməməsi səbəbindən baş vermişdir. Ailə üzvləri arasında ünsiyyət çətinliyi, sosial-psixoloji mühitin gərgin olması, məişət zorakılığının və intihar hallarının artması ailələrin təməlinin zəifləməsinə və nəticədə dağılmasına gətirib çıxarır. Nəticədə məhkəmələrdə uşaq tələbi, uşaqla ünsiyyət, alimentlərin ödənilməsi, əmlak bölgüsü ilə bağlı mübahisələr üzrə illərlə çəkişmələr gedir. Və bütün bu hallardan ən çox əziyyət çəkən uşaqlar olur.

Təhlillər göstərir ki, nikahdan əvvəl tibbi müayinə ilə yanaşı ailə quracaq gənclərin müvafiq psixoloji uyğunluğunun yoxlanılması olduqca vacibdir. Bu istiqamətdə "Ailə Psixoloqu" institutunun, ailə məhkəmələrinin yaradılması, əhalinin bu xidmətdən geniş istifadəsi üçün zəruri tədbirlərin görülməsinə ehtiyac vardır. Tərəfimizdən bu sahədə müxtəlif ölkələrin təcrübəsi öyrənilir. Ən yaxşı nümunələrdən biri Türkiyədir. Burada ailə psixoloqu həm Ailə və Sosial Siyasət Nazirliyinin, həm də bələdiyyələrin tərkibində fəaliyyət göstərir.

Mətbuat konfransında həmçinin qeyd olunub ki, hər il ölkədə vətəndaşların sosial təminatı və müdafiəsi üzrə xərclər artırılır. 2020-ci ilin dövlət büdcəsi layihəsində sosial müavinətlərin, təqaüdlərin və digər sosial xarakterli ödənişlərin maliyyələşdirilməsi üçün xərclər 2019-cu ilin xərclərindən iki dəfə çoxdur. "Bu gün rayonlarda, kəndlərdə həssas ailələr var ki, onlarda ciddi hallar, faciələr baş verdikdən sonra dövlət qurumları bu barədə məlumatlı olur. Biz çox vaxt nəticə ilə mübarizə aparırıq. Halbuki vaxtında bu ailələrlə profilaktik iş aparılsa idi ağır hallar baş verməzdi. Elə bu məqsədlə biz hər bir icra hakimiyyəti yanında gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupları yaratmışıq. Mütəmadi olaraq bu qrupların fəaliyyəti qiymətləndirilir, bu sahədə çətinliklər müəyyən edilir, təlim və seminarlar keçirilir. Bütün bunlar həmin monitorinq qruplarının işinin daha da təkmilləşdirilməsinə xidmət edir.Həmçinin biz gənc hüquqşünaslarla, dövlət qulluqçuları ilə Azərbaycan Respublikası Prezidenti yanında İdarəçilik Akademiyasında, Bakı Dövlət Universitetində seminarlar keçiririk. Vəkillər üçün təlimlər təşkil edirik"-deyən, H.Hüseynova əlavə edib ki, Komitənin təbeliyində 11 rayonda yerləşən Uşaq və Ailələrə Dəstək Mərkəzləri fəaliyyət göstərir. Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin yaradılması və inkişafı, rayon və kənd icmalarında qarşıya qoyulan ali məqsədlərə nail olmaq üçün atılan ən effektiv addımlardan biridir. Mərkəzlərin fəaliyyətinin əsasını icmada risk qrupundan olan uşaq, qadın və ailələrlə sosial və psixoloji işin aparılması, uşaqların internat müəssisələrinə düşməsinin, təhsildən yayınmasının, erkən nikahların, məişət zorakılığının, qadın və uşaq zorakılığının, insan alveri hallarının qarşısının alınması, yeniyetmələrin təhlükəli yaş dövründə asudə vaxtının təşkili və digər sosial problemlərlə bağlı qabaqlayıcı maarifləndirmə tədbirlərinin həyata keçirilməsindən, əhalinin ehtiyaclarına uyğun xidmətlərin təşkilindən ibarətdir. Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin əsas benifisiarları risk qrupundan olan ailələr, qadınlar və uşaqlar, xüsusən də sosial təhlükəli vəziyyətdə olan ailələr və məişət zorakılığına məruz qalmış şəxslərdir.

Fəaliyyəti dövründə Mərkəzlərə müxtəlif mövzularda edilən müraciətlərin sayı on beş min iki yüzdoxsan bir olmuşdur. Onlardan on bir min beş yüz iyirmi iki nəfəri qadındır. Mərkəzlərin icma daxilində etibar qazanması qadın müraciətçilərin sayının artmasına səbəb olmuşdur. Ailə daxilində problemlərin araşdırılması, qiymətləndirilməsinin aparılması, ailələrin güclü tərəflərinin aşkarlanması məqsədi ilə ailələrə mərkəzlərin sosial işçi və psixoloqları tərəfindən səfərlər edilərək ailələrin potensialının artırılması istiqamətində işlər həyata keçirilir.

Hazırda ölkədə iki milyon altı yüz mindən çox uşaq olduğunu deyən H.Hüseynova söyləyib ki, ölkədə vahid dövlət uşaq siyasətini həyata keçirən dövlət qurumu kimi, Komitə mütəmadi olaraq, müxtəlif layihələr həyata keçirir.

## Naxçıvanda əlil və şəhid ailələrinin mənzillə təminatının davam etdirilməsinə 500 min manat ayrılıb



Prezident İlham Əliyev noyabrın 22-də "Əlil və şəhid ailələrinin mənzil təminatı ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən əlil və şəhid ailələrinin mənzillə təminatının davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.47.2-ci yarımbəndində göstərilmiş məbləğin 500 min manatı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ayrılıb.

## Bəhreynin Mədəniyyət naziri:" İslam mədəniyyət irsinin tanıdılmasında Azərbaycanın böyük rolu var"

Azərbaycan artıq mədəni dəyərlərin, tarixi irsin qoruyucusu və hamisi kimi özünü təsdiq edib. Azərbaycan bu sahədə müxtəlif beynəlxalq konfranslara ev sahibliyi edib, zəngin təcrübəyə yiyələnib. Nazirlikdən SİA-ya verilən xəbərə görə, bu sözləri Parisdə UNESKO-nun Baş Konfransının 40-cı sessiyası çərçivəsində Bəhreynin Mədəniyyət naziri Şeyxa May bint Məhəmməd Al Xəlifə müsahibəsində söyləyib.

"İki ölkə arasında mədəniyyət sahəsində əlaqələrimiz yüksək səviyyədədir. Dəfələrlə Azərbaycanda olmuş və beynəlxalq tədbirlərdə iştirak etmişəm. Ölkənizin islam mədəniyyət irsinin tanıdılmasında rolu olduqca böyükdür. Buna görə də bütün Şərq ölkələri, İslam irsini bölüşən ölkələr, o cümlədən Bəhreyn Azərbaycanla əməkdaşlığın inkişafında maraqlıdır. Azərbaycanın Mədəniyyət naziri ilə iki ölkə arasında UNESKO çərçivəsində həyata keçirə biləcəyimiz layihələri müzakirə etdik", - deyə Şeyxa May bint Məhəmməd Al Xəlifə deyib.

# Yeni Azərbaycan Partiyası 27 il - şərəfli, mənalı və tarixi yol



***Bəllidir ki, Yeni Azərbaycan Partiyası cəmiyyətimizdə, eləcə də, beynəlxalq aləmdə ən böyük nüfuza sahib olan partiyalardandır. Ulu Öndərimiz Heydər Əliyevin qurucusu olduğu YAP xalqımızın və ölkəmizin həyatını kökündən dəyişdirib, eyni zamanda, siyasi mübarizələrlə dolu şərəfli bir yol keçib. İqtidar partiyası olaraq, YAP Ulu Öndər Heydər Əliyev siyasətinin avanqard qüvvəsi kimi, xalqımızın qarşısında dayanan vəzifələrin həll edilməsinə layiqli töhfəsini verib və bundan sonra da verəcək.***

Söz yox ki, öz sıralarında ictimaiyyətin bütün təbəqələrini birləşdirən YAP Ümummilli Lider Heydər Əliyevin parlaq ideyalarının daşıyıcısı kimi, cəmiyyətdə aparıcı rolunu gündən-günə daha da möhkəmləndirməkdədir. Dahi Öndər Heydər Əliyev dühasının zəngin siyasi və dövlətçilik təcrübəsinə əsaslanan Yeni Azərbaycan Partiyası ölkəmizdə ən güclü, ən monolit siyasi təşkilatdır və ictimai nüfuzuna görə onunla müqayisə edilə biləcək digər partiya mövcud deyil. Azərbaycan Respublikasının Prezidenti, partiyamızın Sədri İlham Əliyevin vurğuladığı kimi, artıq Yeni Azərbaycan Partiyası Cənubi Qafqaz regionunun ən güclü siyasi qüvvəsidir. YAP bütün situasiya və məqamlarda ardıcıl və məqsədyönlü şəkildə dövlətçilik, milli-mənəvi dəyərlərimizə sadiqlik mövqeyində dayanıb, xalqımızın arzularının təcəssümü, yekdil iradəsinin ifadəçisi kimi çıxış edib və etməkdədir. Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz bir çox sahələrdə uğurlar qazanıb

Millət vəkili Tahir Rzayev “Səs” qəzetinə açıqlamasında Yeni Azərbaycan Partiyasının keçdiyi tarixi yoldan və 27 il ərzində Ümummilli Lider Heydər Əliyevin parlaq ideyalarının daşıyıcısı kimi cəmiyyətdə öz aparıcı rolunu gündən-günə daha da möhkəmləndirməkdə olduğunu bildirib:

- Yeni Azərbaycan Partiyasının yaradılması dövrün zamanın tələbi idi. 1990-cı ilin əvvəllərində ölkədə mövcud ictimai-siyasi vəziyyət, qarşıdurmalar, torpaqların işğalı, hakimiyyətsizlik belə bir partiyanın meydana gəlməsini və ona Heydər Əliyev kimi müdrik insanın rəhbərlik etməsini zərurətə çevirmişdir. Azərbaycan xalqı dərk edirdi ki, bu çıxılmaz vəziyyətdən gələcəkdə gözlənilə bilən ağır bəlalardan ölkəni yalnız Ulu Öndər Heydər Əliyev kimi bir rəhbər xilas edə bilər və məhz buna görə də insanlar öz seçimini vaxtında etdi. Bir qrup ziyalının, ictimai-siyasi xadimlərin, sadə vətəndaşların müraciətləri düşünülmüş təkidləri nəticəsində, Yeni Azərbaycan Partiyası təsis olundu və Heydər Əliyev partiyanın Sədri seçildi. Bu unudulmaz bir tarixdir və bu tarixin hər bir səhifəsi həm çətin, həm də şərəfli və mənalı günlərlə zəngindir. Çünki partiyanın yaranması və Heydər Əliyevin Sədrliyi ilk gündən xalqda böyük inam, ümid yaratdı. Siyasi təşkilatın sıraları sədaqətli vətəndaşlar hesabına möhkəmləndi və yeni müstəqil amallara doğru yollar açıldı və işlər başlandı. Məhz bunun nəticəsində YAP-ın Sədri Heydər Əliyev az bir müddətə siyasi hakimiyyətə gətirildi, ölkə Prezidenti seçildi. Əlbəttə ki, xalq öz seçimində yanılmamışdır. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 60-70-ci illərdə qazandığı hörmət respublikada əldə olunan müvəffəqiyyətlər və zəngin təcrübə Onun zəmanəti idi. Xalq bildirdi ki, O, bu dəfə də öz həyatını Azərbaycanın müstəqilliyinin qorunması və möhkəmləndirilməsi üçün qoymağa hazır olacaq və bunu əməlləri ilə sübut edəcəkdir. Elə də oldu. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə qarşıdurmaların, özbaşınalıqların, hakimiyyətsizliyin qarşısı alındı, ictimai-siyasi sabitlik bərpa olundu, iqtisadiyyat dirçəlməyə başladı, torpaqların işğalı dayandırıldı, milli ordu yaradıldı, insanların normal həyatı təmin edildi, beynəlxalq aləmə çıxış genişləndirildi, xarici ölkələrlə əməkdaşlıq möhkəmləndirildi, çox mühüm layihələrin həyata keçirilməsinə və kontraktların başlanmasına start verildi.

Azərbaycan vətəndaşı özünü sərbəst, azad, firəvan hiss etməyə başladı. Biz Yeni Azərbaycan Partiyasının hər ildönümünü qeyd edəndə, əlbəttə, öncə Ulu Öndərimiz Heydər Əliyevi yada salırıq. Ulu Öndərimiz Heydər Əliyevin Azərbaycan xalqına bəxş etdiyi unudulmaz töhfələrlə, müstəqilliyimizlə, bu günümüzlə, inkişafımızla, xoşbəxt həyatımızla fəxr edir və xoş gələcəyimizi düşünürük. Sevinirik ki, Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayır və qalib gəlir. Hörmətli Prezidentimiz İlham Əliyev tərəfindən bu ölməz amallar sədaqətlə, cəsarətlə və müvəffəqiyyətlə həyata keçirilir. Hər bir Azərbaycan vətəndaşı və vətənini xalqını sevən hər bir kəs Yeni Azərbaycan Partiyasını, onun ölməz Lideri Heydər Əliyevə və böyük rəhbərin sədaqətli davamçısı Prezidentimiz İlham Əliyevlə qürur duymaqda haqlıdır. Belə bir gündə uğurlarımızla sevinməyə və öyünməyə dəyər”.

***RƏFİQƏ HÜSEYNOVA***

## “Dövlət başçısı çıxışı ilə erməni xislətinin əsl mahiyyətini açıqladı”

*“Prezident İlham Əliyevin Sumqayıtda çıxışı gerçəklikləri əks etdirir. Həqiqətən də o dövrdə Azərbaycanda xalq ilə hakimiyyət arasında dərin uçurum yaranmışdı. Azərbaycanın müstəqilliyi təhlükə altına düşmüşdü”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı, tarixçi Musa Qasımlı deyib.*



Həmin dövrdə Azərbaycanın xaricdən dəstəklənən separatçılıqla və vətəndaş müharibəsi təhlükəsi ilə üzüzə qaldığını deyən deputat söyləyib ki, belə bir şəraitdə çarəsiz qalan hakimiyyət xalqın tələbi ilə Naxçıvandan Ulu Öndər Heydər Əliyevi Bakıya dəvət etdi: “Ulu Öndərin Heydər Əliyevin Bakıya dəvət edilməsi müstəqil Azərbaycan dövlətçiliyini dağılmaqdan xilas etdi, xalqı vətəndaş müharibəsi təhlükəsindən qorudu və gerçək dövlət quruculuğuna başlanılıb”.

Tarixçi qeyd edib ki, mərasimdə Azərbaycan Prezidenti haqlı olaraq Sumqayıt hadisələrini erməni millətçilərinin təxribatı adlandırdı: “Dövlət başçısı “Artıq neçə ildir ki, erməni millətçiləri Sumqayıt şəhərinə qara yaxmaq, ləkə vurmaq istəyirlər. Tamamilə əsassızdır və cəfəngdir. Tam məsuliyyətlə deyirəm ki, Sumqayıt hadisələrini törədən erməni millətçiləridir və erməni dəstələridir” deməklə, bu hadisələri yenidən olduğu kimi ictimaiyyətə xatırlatdı”.

Prezident İlham Əliyev Sumqayıt hadisələri ilə bağlı fikirlərinə toxunan M. Qasımlı qeyd edib ki, dövlət başçısı məhz bu çıxışı ilə həm Sumqayıt hadisələrinin, həm də erməni xislətinin əsl mahiyyətini açıqladı.

***Nailə Məhərrəmova***

## “Rusiya Azərbaycan üçün çox mühüm tərəfdaşdır”

“Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva noyabrın 20-də Rusiya Federasiyasına rəsmi səfərə gəlib. Səfər çərçivəsində bir çox görüşlərdə iştirak edib. Birinci vitse-prezident noyabrın 21-də Rusiya Federasiyası Hökumətinin sədri Dmitri Medvedevlə görüşüb və ikitərəfli münasibətlər haqqında söz açıblar”. Bunu SİA-ya açıqlamasında millət vəkili Cavid Osmanov deyib.

Deputatın sözlərinə görə, burada əsas məsələlər ondan ibarət oldu ki, Rusiya Azərbaycan üçün çox mühüm mehriban qonşudur və yaxın bir tərəfdaşdır: “Eyni zamanda Rusiya ilə Azərbaycan arasında həm iqtisadi, siyasi, həm də hümanitar və s. inkişaf edən dinamika üzrə bütün sahələr inkişaf edir. Təbii ki, burada ilk növbədə Mehriban xanım Əliyeva qeyd edib ki, iki ölkənin dövlət başçılarının həm şəxsi münasibətləri, həm də onların tez-tez görüşləri Azərbaycanla Rusiya arasında yaxın tərəfdaşlıqdan xəbər verir. Azərbaycanla Rusiya arasında uzun müddətdir əhatə olunan iqtisadi baxımdan çox vacib inteqrasiyalar var. Belə ki, Ru-



siya ilə Azərbaycan arasında təkcə 2018-ci ildə əmtə dövriyyəsi 18 faiz artaraq, 2,6 milyard dollar həcminə çatıb. 2019-cu ilin doqquz ayı ərzində bu dövriyyə artıq 24 faiz artıb. Bununla belə Rusiya sərmayələri də Azərbaycanda mövcuddur. Həmçinin qarşılıqlı olaraq Azərbaycan sərmayələri Rusiyada mövcuddur. Bu sərmayələrin əmtə dövriyyəsinin 2-3 dəfə artırılmasına hər iki ölkə tərəfindən potensial var. Hümanitar sahədə Azərbaycanla Rusiya arasında çox vacib məsələlər var. Mehriban Əliyeva vurğulayıb ki, təkcə Azərbaycanda 338 ədəd orta məktəblər var ki, bunlarda da dərslər yalnız rus dilində keçirilir. Eləcə də turizm sahəsi ilə bağlı Birinci vitse-prezident vurğulayıb ki, təkcə ötən il Rusiyadan Azərbaycana 900 min turist gəlib”.

***Ceyhun Rasimoğlu***

## Yayda yanğın baş verən meşə ərazilərində meşəbərpa tədbirlərinə başlanılacaq

***Azərbaycan arid iqlim zonasında yerləşdiyi üçün yanğınlardan xali deyil. Yay mövsümündə Oğuz, İsmayıllı, Lənkəranda meşə yanğınları qeydə alınıb. Həmin ərazilərdə payız mövsümündə meşəbərpa tədbirlərinin aparılması nəzərdə tutulub. Yanğın baş vermiş ərazilərə əsasən palıd və yerli şəraitə uyğun ağacların toxumlarının səpilməsi planlaşdırılıb. Meşəbərpa tədbirlərinə noyabrın 25-dən etibarən başlanılacaq.***



AZƏRTAC xəbər verir ki, bu barədə Ekologiya və Təbii Sərvətlər nazirinin müavini Firdovsi Əliyev noyabrın 22-də keçirilən brifinqdə məlumat verib.

Nazir müavini aqrobağların salınması məsələsinə də toxunub: “2017-ci ildə Meşə Məcəlləsində dəyişiklik edilib. Belə ki, əvvəllər ağac olmayan ərazilər 10 il müddətinə sahibkarlara icarəyə verilirdi. Hazırda nazirliyin aqrobağlar salmağı nəzərdə tutmadığı həmin ərazilər daha uzunmüddətli icarəyə verilir. Sahibkarlar meşə olmayan, daş-kəsəkli ərazilərdə, çay yataqlarında yerli şəraitə uyğun ağaclar əkərək aqrobağlar salırlar. Bu, həm məhsul bolluğuna, həm də əlavə iş yerlərinin açılmasına səbəb olur. Sosial şəbəkələrdə bu barədə əks mövqe bildirənlərin əksəriyyəti vaxtilə öz xidməti vəzifəsini düzgün yerinə yetirməməsi səbəbindən işdən kənarlaşdırılmış insanlardır”.

# Zamanın çağırışları: Qarabağ Azərbaycanındır

## *Erməni ictimaiyyəti bu çağırışla indi də Paşinyana istefa yolunu göstərir*

***Bu gün Ermənistan "dənizsiz ada" durumuna düşüb. Azərbaycan ərazilərinin işğalına son qoymadan, düz 30 ildən çoxdur ki, Ermənistan işğalçılıq siyasəti aparmaqla, ölkənin uçuruma aparılmasına gətirib çıxırıb. Bunun da səbəbi ölkəyə rəhbərlik edənlərin işğalçılıq siyasəti aparmasıdır. Artıq ermənilər də bu siyasətin onlara hansı bəlalar gətirdiyinin düz 30 ildən çoxdur ki, şahididir. Məhz buna görə də, erməni ictimaiyyəti "Qarabağ Azərbaycanındır!" çağırışı ilə Paşinyanın düz yola gəlməsini tələb edir, əks halda onun da sonu Sarkisyan yolu - istefa olacağını bildirirlər. Ermənistan Milli Statistika Xidmətinin 2018-ci ilinə olan məlumatına görə, ölkədə daimi yaşayan əhalinin sayı 2 milyon 869,2 min nəfərdir.***





Bu, 2017-ci ilin eyni dövrü ilə müqayisədə, 10 500 nəfər azdır. 2018-ci ilin 9 ayında əhalinin sayının 4500 nəfər azaldığı vurğulanır. 7400 nəfərlik təbii artım müqabilində ölkədən 10900 nəfər köçüb. Milli Statistika Xidmətinin məlumatında 2018-ci ilin 9 ayında doğum sayının 2017-ci ilin eyni dövrü ilə müqayisədə 4,2 faiz, ölüm hallarının isə 6,4 faiz azaldığı qeyd olunur. BMT-nin "Dünya əhalisinin perspektivləri-2017" illik hesabatında qeyd olunub ki, 21-ci əsrdə Ermənistanın daimi əhalisinin sayı 1 milyon 300 min nəfər azalacaq və 1 milyon 700 min nəfərə çatacaq".

Analitiklərin sözlərinə görə, bütün bunlar onu göstərir ki, demoqrafik böhrana təsir edən əsas faktorlar sırasına doğum və ölüm səviyyəsi, evlilik və boşanma nisbəti, miqrasiya dərəcəsi, təbii fəlakətlər, ölkədəki sosial-iqtisadi problemlər daxildir və zaman olacaq ki, ölkədə işləməyə, xidmət etməyə vətəndaş tapılmayacaq. Büiün bunlara səbəb ölkəyə Paşinyan kimi, küçə "demokratları"nın rəhbərlik etməsidir.

Gözəl bir deyim var: tarixi həqiqətləri inkar etdikdə, reallıq hissi itirilir. Bu, həqiqətən də, belədir. Bu gün Ermənistanın küt "demokratı" Nikol Paşinyan əsassız ittihamlarla çıxış etməklə, yalan və əsassız iddialar irəli sürməyə vərdiş etdiyi üçün ruslarını ermənilərə, daha doğrusu, Serj Sarkisyanın Ermənistanın dövlət başçısı olduğu zaman ona "it quyruğu" adı bu gün Paşinyana da aid olması ilə barışmalı olmalıdır.

Bu yerdə bir məqamı da xatırlatmaq yerinə düşər: "yalan ayaq tutar, yeriməz". Nikol Paşinyan hansı formada yalan danışsa da, yenə də həqiqət üzə çıxır. Hətta Ermənistan Rusiyanın forpostu olsa belə, artıq işğalçı ölkənin iyrənc və çirkin yalanlarından bezərək, həqiqəti birbaşa efirdə də səsləndirilir, politoldoqlar hər şeyi açıqaydın deyir.

Çünki Ermənistan qeyri-konstruktiv mövqe tutması ilə yanaşı, həm də ATƏT-in Minsk Qrupunun səmərəsiz fəaliyyəti nəticəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində heç bir irəliləyiş olmayan növbəti bir ili də uğursuz başa vurmaqdadır. Erməni xalqı, artıq qaniçən Serj Sarkisyanın, onun ardınca Nikol Paşinyanın işğalçılıq siyasətindən boğaza yığılaraq, "Ya ölüm, ya olum" dilemması qarşısında qaldığını bildirir. Həmçinin, Dağlıq Qarabağ uğrunda aparılan müharibənin mənasız olduğunu və bu yolda Ermənistanın işğalçı niyyətindən əl çəkməsinin vacibliyini deyirlər.

### Georgi Vanyan: "Erməni xalqı Ermənistanı işğalçı ölkə və Azərbaycanın haqlı mövqeyini dərk edir"

Erməni hüquq müdafiəçisi Georgi Vanyan Ermənistanı işğalçı ölkə olduğunu, Azərbaycanın haqlı mövqeyini müdafiə etdiyini bildirib: "Təəssüf ki, nə hökumətlərin, nə də ki, dünya ictimaiyyətinin konfliktin həllində heç bir marağı yoxdur. Bizim xalqların daxilində nə isə dəyişməlidir. Gərək daxildə yeni proses, mədəni inqilab, beyinlərin inqilabı başlasın. Ancaq nə qədər ki, Sarkisyan, Nikol Paşinyan kimilər işğalçılıq siyasəti aparırlar, bu, mümkün olmayacaq".

Ermənistanı işğalçı ölkə kimi tanıyan və hakimiyyətə gələnlərini günahlandıran daha bir erməni İnsan Haqqları və Azadlıqlarının Müdafiəsi təşkilatının rəhbəri, keçmiş siyasi məhbus və hüquq müdafiəçisi Vardan Arutyutyan ölkədə yaranmış bu ağır durumda Sarkisyanın uğursuz xarici və daxili siyasəti nəticəsində baş verdiyini bildirir: "Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsi olub, yenidən Azərbaycana qaytarılmalıdır. Bu müharibənin davam etməsi Ermənistanı və erməni xalqını çox geri qoyur". Bir faktı da qeyd edək ki, Vardan Arutyutyan Ermənistan hakimiyyətini birbaşa tənqid etdiyi üçün dəfələrlə təyziqlərə məruz qalıb. Erməni hüquqşünası, hətta Prezident İlham Əliyevə müraciət edərək, Azərbaycan vətəndaşı olmaq istəsə də, hakim dairələr buna imkan verməyib.

### İqor Muradyan: "Ermənistan hakimiyyətinin bizə məxsus olmayan torpaqları geri qaytarmaq istəyib-istəməməsi ilə bağlı sual artıq qapanıb"

Siyasi şərhçi İqor Muradyan isə Ermənistanın işğal etdiyi torpaqları qaytarmaqdan başqa yolu olmadığını deyir: "Uzun illər ərzində, ardıcıl olaraq, Qarabağın qaytarılması planını müzakirə etdikdən sonra onu qaytarmamaq qeyri-mümkündür. Müasir dünyada, bu, mümkün deyil".

İqor Muradyan Ermənistan parlamentinin vitse-spikeri, hakim Respublika Partiyasının təmsilçisi Ermine Naqdalyanın Dağlıq Qarabağ ətrafındakı torpaqların Azərbaycana məxsus olması və yaxın zamanlarda qaytarılcağı barədə səsləndirdiyi ifadəni də xatırladır: "Ermənistanın indiki və keçmiş hakimiyyəti dəfələrlə xatırladıb ki, aran Qarabağın torpaqları bizə məxsus deyil. Görünür, əraziləri qaytarmaq üçün daha əlverişli vəziyyətin təqdim olunmasını gözləyiblər. Ermənistan hakimiyyətinin bizə məxsus olmayan torpaqları geri qaytarmaq istəyib-istəməməsi ilə bağlı sual artıq qapanıb".

### İveta Mukuçyan: "Dağlıq Qarabağ Azərbaycana məxsusdur"

Erməni eksperti İveta Mukuçyan isə Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu bildirib: "Dağlıq Qarabağ Azərbaycana məxsusdur, amma bu, Ermənistanda ikinci demokratiyadır".

Beləliklə, bütün bunlar bir daha sübut edir ki, Ermənistan hökuməti 26 ildə siyasi böhran və qeyri-müəyyən "islahatlar" yolunda olub və qarşıdakı 2020-ci ilə də işğalçı ölkənin bundan sonra da islahatlar aparmaq gücündə olmadığını bir daha təsdiqləyir. Və artıq erməni xalqı onu da anlayır ki, Dağlıq Qarabağ Azərbaycana məxsusdur. Eyni zamanda, onu da anlayır ki, Azərbaycanın güclü Lideri və sarsılmaz ordusu var. Çünki Güclü Ordu ilə Güclü Dövlət anlayışı vəhdət təşkil edir. Ali Baş Komandan, ölkə Prezidentinin bildirdiyi kimi: "Nə qədər ki, Ermənistan bu təxribatçı əməllərdən əl çəkməyəcək, Azərbaycan Ordusu onları bundan sonra da cəzalandıracaq".

***A.SƏMƏDOVA***

## Atrur Vanetsyan: "Soros" fondunun Ermənistandakı fəaliyyəti respublika üçün ciddi təhlükədir



***Ermənistanda digər ölkələr tərəfindən maliyyələşdirilən güclər fəaliyyət göstərir. SİA xəbər verir ki, bu barədə Ermənistanda yayımlanan "Pressinq" proqramında ölkənin milli təhlükəsizlik xidmətinin sabiq rəisi Atrur Vanetsyan deyib.***

"Düşünürəm ki, var", deyə qeyd edən Vanetsyan müvafiq sualı cavablandırarkən bunu etiraf edib. Lakin o həmin güclərin müxalifətdə, yaxud iqtidaryönlü düşərgədə fəaliyyətinin olub-olmaması sualından yayınıb. Vanetsyan onu da bəyan edib ki, "Soros" fondunun Ermənistandakı fəaliyyəti respublika üçün ciddi təhlükə yaradır.

# Turizmin inkişafında yeni mərhələ

## *Prezident İlham Əliyev: "9 ayda Qəbələyə 300 min turist gəlib"*

***Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi iqtisadi siyasət Azərbaycanı, regionun davamlı inkişaf edən və məqsədlərinə doğru inamla irəliləyən dövlətinə çevirib. Dövlət başçısının rəhbərliyi altında son illər ölkədə yeni sosial infrastruktur obyektlərinin - təhsil, mədəniyyət, səhiyyə, rabitə müəssisələrinin istifadəyə verilməsi, yeni yolların, su, qaz, elektrik və rabitə xətlərinin çəkilişi aparılan işlərin uğurlarından xəbər verir. Bu kontekstdə ölkəmizdə regional inkişafa xidmət edən proqramların həyata keçirilməsi görülən işlərin məntiqi davamıdır. Dövlət proqramları ölkədə makroiqtisadi sabitliyin təmin olunması, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, yeni müəssisə və iş yerlərinin yaradılması, əhalinin rifah halının daha da yaxşılaşdırılması kimi prioritetləri özündə ehtiva edir.***

Bütün bunlarla yanaşı, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən yol infrastrukturunun yaxşılaşdırılması istiqamətində də böyük addımlar atılıb. Azərbaycanda magistral yollar müasir formada yenidən qurulub. Bir çox yaşayış məntəqəsini birləşdirən kəndlərin, yaşayış məntəqələrinin yol infrastrukturun yaxşılaşdırılması ilə bağlı dövlət başçısı, son illər ərzində, xeyli sayda Sərəncam imzalayıb ki, bu da, əhalinin rahatlığına xidmət edir. Vətəndaşların rahat gediş-gəlişinin təmin olunması, yük və sərnişindaşımanın rahatlaşması ilə bərabər bölgələrdə turizmin inkişafına səbəb olub. Ölkəmizə səfər edən turistlərin gedib-gəlməsi üçün geniş imkanlar yaradılıb və bu, davam etməkdədir. Çəkilən dəmir yolları daxili turizmin, həmçinin, beynəlxalq turizmin inkişafına da töhfəsini verir. Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanovu qəbul edərkən, bildirdiyi kimi, göstərişlə ölkədaxili dəmir yollarının tikintisi və modernləşdirilməsi istiqamətində addımlar atılır, o cümlədən, Bakı şəhərətrafı yolun tikintisi gedir: "Bu, Bakı qəsəbələrini şəhərin mərkəzi ilə bağlayan yollardır. Eyni zamanda, bizim turizm mərkəzlərindən biri olan Qəbələ şəhərinə dəmir yolunun çəkilişi layihəsi davam etdirilir. Sovet vaxtında Qəbələyə dəmir yolu çəkilməmişdi, buna ehtiyac yox idi, ancaq hazırda buna böyük ehtiyac var. Mən bu təşəbbüsü irəli sürəndə, bəziləri fikirləşirdilər ki, buna ehtiyac yoxdur. Halbuki bu yaxınlarda Qəbələdə olarkən, mənə məlumat verildi ki, bu ilin 9 ayında Qəbələyə 150 min turist gəlmişdir. Ancaq söhbət otellərdə yerləşən turistlərdən gedir. Əgər fərdi qaydada evlərdə kirayədə qalan turistləri nəzərə alsaq, bu, əlavə 150 min olacaq. Yəni 9 ayda Qəbələyə 300 min turist gəlib".







### "LƏKİDƏN QƏBƏLƏYƏ DƏMİR YOLUNUN ÇƏKİLMƏSİ XÜSUSİ ƏHƏMİYYƏT DAŞIYIR"

Beynəlxalq standartlara cavab verən bugünkü magistral yollar və dəmir yolları ölkəmizin simasını başdan-başa dəyişdirmişdir. Respublika iqtisadiyyatının qüdrətini artıran bu yollar indi Avropa ölkələrinin yollarından heç də geri qalmır. Fərəhlidir ki, bu istiqamətdə işlərin həcmi ilbəil artır. "Qəbələyə bir yol var - Şamaxı-Qəbələ yolu. O yol da artıq mənim göstərişimlə yenidən qurulacaq. Əlbəttə ki, bu yol artan turizm trafikini götürə bilməyəcək. Ona görə Ləkidən Qəbələyə dəmir yolunun çəkilməsi xüsusi əhəmiyyət daşıyır" deyə dövlət başçısı bildirib.

Prezident İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsidir ki, bu gün ölkəmizin bütün bölgələri, o cümlədən, Qəbələ sürətlə inkişaf edir. Rayonun sosial-iqtisadi inkişafı və zəngin turizm potensialı yaxın illərdə Qəbələnin dünyanın məşhur turizm mərkəzlərindən birinə çevriləcəyinə zəmin yaradır. Təsadüfi deyildir ki, Prezident İlham Əliyev Qəbələ rayonuna səfərləri zamanı yeni beşulduzlu otel və istirahət mərkəzlərinin açılışında iştirak edir, turizmin daha da inkişafı üçün dəyərli tövsiyələrini verir. Qəbələnin son illər bir sıra beynəlxalq mədəni-kütləvi tədbirlərə ev sahibliyi etməsi də bu rayona işgüzar səfərə və istirahətə gələnlərin sayını dəfələrlə artırmışdır. Artıq ənənə halını almış və hər ilin yay aylarında keçirilən Qəbələ Beynəlxalq Musiqi Festivalında dünyanın 20-yə yaxın ölkəsindən dünya şöhrətli musiqiçilər iştirak edirlər. Festivalda səsləndirilən klassik musiqiləri canlı dinləmək üçün yüzlərlə yerli və xarici musiqi həvəskarları Qəbələyə təşrif buyururlar. Qonaqlar musiqi bayramında iştirak etməklə yanaşı, rayonun müasir turizm obyektlərində dincəlir, tarixi abidələri ilə tanış olur, əsrarəngiz təbiətini seyr edirlər. Bu gün Qəbələdə irili-xırdalı 100-dən artıq turizm obyekti fəaliyyət göstərir. Gün ərzində bu obyektlərdə, ümumilikdə, 2500-ə yaxın qonağa milli, türk və Avropa yeməklərinin daxil olduğu restoran xidmətləri və müasir otelçilik, meşə gəzintisi, atla gəzinti, balıq ovu, göldə qayıqla gəzinti, rayonun görməli yerlərinə və tarixi abidələrinə səyahət xidmətləri göstərilə bilir.

### AZƏRBAYCAN DÜNYADA TURİZM ÖLKƏSİ KİMİ TANINIR

Qəbələ rayonunda mövcud olan turizm obyektləri hər il nüfuzlu sərgilərdə, dünya səviyyəli ixtisaslaşdırılmış yarmarkalarda iştirak edir və bazarda özünün turizm məhsullarını nümayiş etdirir. Rayonun təbii iqlim şəraiti də burada turizmin inkişafı üçün yeni perspektivlər açır. Relyefi müxtəlif olan Qəbələnin şimal hissəsi Böyük Qafqaz dağ silsiləsinin cənub yamacına, mərkəzi hissəsi Alazan-Həftəran vadisinə, cənub hissəsi isə Acınohur ön dağlığına daxildir. Təsadüfi deyildir ki, respublikanın ən yüksək dağ zirvəsi olan Bazardüzü bu rayonun ərazisində yerləşir.

Azərbaycanın ən gözəl məkanlarından biri olan Qəbələ həm də çoxlu sayda tarixi abidələri, maddi-mədəniyyət nümunələri ilə məşhurdur. Bu tarixi abidələr Qəbələnin tarixinin min illər bundan əvvəllərə gedib çıxdığını göstərir. Bu füsunkar yurd yerinin qədim tarixi, adət-ənənələri və xalq sənəti nümunələri çox zəngindir.

Rayonda turizmin inkişaf dinamikasına nəzərə salsaq, görərik ki, bu yerlərə turist axını yüksələn templə davam edir. Onların arasında mədəniyyətimizlə və tarixi abidələrimizlə maraqlananların sayının çox olması sevindirici haldır. Xüsusilə, beşulduzlu "Qafqaz Resort", "Qafqaz Riverside", "Qafqaz Sport", "Qafqaz Karvansaray" hotelləri, "Qəbələnd" istirahət və əyləncə mərkəzi, "Xanlar", "Çənlibel", "Soyuq bulaq", "Gilan", "Qəbələ", otel və istirahət mərkəzləri son illərdə inşa edilən turizm obyektlərindəndir və burada qonaqların mənalı, xoş istirahəti üçün hər cür şərait yaradılmışdır. Qafqaz brendi altında fəaliyyət göstərən beşulduzlu otellər xidmətin səviyyəsinə görə ölkənin ən qabaqcıl otelləri sırasındadır.

Azərbaycan dünyada həm də turizm ölkəsi kimi tanınır. Ölkənin göz oxşayan rahat və müasir magistral yolları əcnəbi turistləri daha çox cəlb edir. Turistlər rahat və təhlükəsiz yollarla Qubanın Xınalıq kəndinə, İsmayıllının Lahıc qəsəbəsinə, cənub mirvarisi Lənkərana, Qusarın "Şahdağ" Qış-Yay Turizm Kompleksinə, Şəkidəki Kiş Alban məbədinə, Şəki Xan sarayına, dənizkənarı bulvarı ilə seçilən gözəl təbiətli Astaraya və başqa görməli və səfalı turizm məkanlarına səfər edirlər.

Müasir yol infrastrukturu, artıq Azərbaycanda özünün layiqli yerini tutmuşdur. Magistral yollarımız, dəmir yolları ölkə iqtisadiyyatının şaxələndirilməsinə, regionlarımızın sürətli inkişafına, ən əsası isə, xalqın sosial rifahının yüksəldilməsinə öz töhfəsini verməkdədir. Bir sözlə, müasirləşən yol şəbəkəsi infrastrukturu insanlara həm rahatlıq verir, həm də turizmin və regionların sosial-iqtisadi inkişafı üçün mühüm amilə çevrilir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Yeni Azərbaycan Partiyası - 27 il uğurlu zəfər yolunda

## *YAP Tərtər rayon təşkilatı partiyanın 27 illiyini qeyd edib*






***Dünən Yeni Azərbaycan Partiyasının yaranmasının 27-ci ildönümü ilə bağlı YAP Tərtər rayon təşkilatı tədbir keçirib. Tədbir iştirakçıları ilk öncə rayonun mərkəzində ucaldılan Yeni Azərbaycan Partiyasının qurucusu, Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, əziz xatirəsini anıblar. Rayonun Gənclər Evində keçirilən tədbirdə iştirakçılar partiyanın qurucusu, Ümummilli Lider Heydər Əliyevin, torpaqlarımızın müdafiəsi zamanı şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Tədbirdə YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov çıxış edərək, partiyanın keçdiyi tarixi yoldan danışıb: "Bu, həmin ərəfə idi ki, Azərbaycanda xaos hökm sürürdü, dövlət büdcəsi talan olunmuşdu, ölkədə hər addımbaşı cinayətlər törədilirdi. Müstəqil respublika elan olunsa da, ancaq bu müstəqilliyi qoruyub-saxlamaq qeyri-mümkün bir hala düşmüşdü. Azərbaycan xalqının çıxılmaz durumda olmasına baxmayaraq, o vaxt iqtidarda olanlar ancaq öz şəxsi niyyətlərinə və şəxsi arzularına xidmət edirdilər. Cəmiyyət ümumxalq inamına malik olan və ilk növbədə, milli birliyə, vətəndaş həmrəyliyinə əsaslanaraq ölkəni böhrandan xilas etməyə qadir olan yeni siyasi qüvvəyə ehtiyac duyurdu. Bu səbəbdən də, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında yeni siyasi partiya yaratmaq istəyi ilə 1992-ci ilin oktyabrında 91 nəfər ziyalı "SƏS" qəzeti vasitəsilə Ulu Öndər Heydər Əliyevə müraciət ünvanladılar. 21 noyabr 1992-ci ildə Naxçıvanda YAP-ın təsis konfransı keçirildi və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi".

R.Şabanov çıxışında diqqəti ölkəmizin əldə etdiyi uğurlara, sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərə yönəldərək bildirib ki, bu uğurların əsasında dövlətimizin qurucusu və memarı, Yeni Azərbaycan Partiyasının yaradıcısı Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və bu gün Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasət dayanır.

Tədbirdə YAP Tərtər rayon təşkilatı şurasının üzvləri, Tərtər-3 ərazi ilk partiya təşkilatının sədri Sahib Həsənov, rayon gənclər və idman idarəsinin rəisi, ərazi ilk partiya təşkilatının sədri Emin Pənahov və başqaları çıxış edərək partiyanın yaranma tarixindən və xalqımız qarşısında misilsiz xidmətlərindən ətraflı bəhs ediblər.

Tədbirdə çıxış edən Tərtər rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov Yeni Azərbaycan Partiyasının yaranma səbəbləri və həmin dövrün ictimai-siyasi vəziyyəti barədə məlumat verib. Bildirib ki, Azərbaycan 1990-cı illərin əvvəllərində çox çətin vəziyyətdə olub: "Belə bir vəziyyətdə Ulu Öndərin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaranması və Ulu Öndərin yenidən hakimiyyətə qayıdışı Azərbaycanı məhv olmaq təhlükəsindən xilas edib. Bu gün Ümummilli Lider Heydər Əliyevin siyasətinin Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi YAP-ın bugünkü və gələcək inkişafını şərtləndirən əsas amildir".

M.Məmmədov, həmçinin, son günlər Azərbaycanın sürətli inkşafını, əldə etdiyi böyük uğurlarını həzm edə bilməyən "siyasi mühacir" adı ilə Avropada məskunlaşan "sapı özümüzdən olan baltalar"ın çirkin əməlləri xalqımız tərəfindən nifrətlə qaşılandığını, onların çirkin əməllərinin artıq "məskunlaşdıqları" ölkələrin də qəbul etmədiyini vurğulayıb: "Bütün bunlara baxmayaraq, bu gün ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevin həyata keçirdiyi siyasət ölkəmizə böyük nüfuz qazandırmış, Azərbaycan regionun lider dövlətinə çevrilibdir. Ölkəmizin iqtisadi cəhətdən qüdrətlənməsi əhalinin sosial şəraitinin yaxşılaşmasına səbəb olubdur".

Tədbirin yekununda rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya üzvünə rayon təşkilatı tərəfindən fəxri fərmanlar, qiymətli hədiyyələr, eyni zamanda, partiya sıralarına yeni qəbul olunanlara üzvlük vəsiqələri təqdim edilib.

**RƏFİQƏ HÜSEYNOVA**

# YAP Zərdab rayon təşkilatı YAP-ın yaranmasının 27-ci ildönümü münasibətilə tədbir keçirib







***Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümü münasibəti ilə Zərdab rayon Heydər Əliyev Mərkəzində tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, xatirəsini ehtiramla yad ediblər.***

Tədbiri giriş sözü ilə Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatının sədri Pərvin Mahmudova açaraq, partiyanın 27 illiyinə həsr olunmuş "YAP dünənin, bu günün və gələcəyin partiyasıdır" mövzusunda məruzə ilə çıxış edib. Rayon təşkilatının sədri tarixə nəzər salıb: "Ölkədə xaos, hərcmərclik hökm sürür, əhali arasında sabaha ümidsizlik və ruh düşkünlüyü yaranmışdı. Belə bir zamanda, ölkə əhalisinin əksər hissəsinin son ümidi o zaman Naxçıvanda yaşayan Ulu Öndər Heydər Əliyevə dikilmişdi. Hər zaman olduğu kimi, bu dəfə də Ulu Öndər dövlətin ağır günündə xalqın təkidli çağırışlarına biganə qalmadı. Ümummilli Lider ölkə ziyalılarının çağırışına səs verdi və Yeni Azərbaycan Partiyası yarandı".

P.Mahmudova məruzəsində bildirib ki, bu gün Azərbaycanın qazandığı uğurlarda Yeni Azərbaycan Partiyasının yaradıcısı, Ümummilli Lider Heydər Əliyevin əvəzsiz xidmətləri danılmazdır və öz sıralarında 700 mindən artıq üzvü birləşdirən YAP Ulu Öndərin parlaq ideyalarının daşıyıcısı kimi, cəmiyyətdə öz aparıcı rolunu gündən-günə möhkəmləndirməkdədir. Ulu Öndər Heydər Əliyev ideyalarına sadiq olan və bu ideyalar əsasında fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası Möhtərəm Prezident İlham Əliyevin Sədrliyi ilə böyük inkişaf yolu keçib.

Məruzə ətrafında çıxış edənlər bildiriblər ki, bu gün YAP Ümummilli Liderimiz Heydər Əliyevin ideyaları əsasında gündən-günə inkişaf edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının üzvləri, bütövlükdə, Azərbaycan xalqı Ulu Öndərimiz Heydər Əliyevin siyasi xəttinə və siyasətinə sədaqətli və dönməzdirlər.

**ZÜMRÜD BAYRAMOVA**

# Sabiq müsavatçılar kimi suçlayırlar?

## Hədəfdə Arif Hacılı və İsa Qəmbərdir




***Müsavat partiyası rəhbərliyinin adının miqrant alveri, çirkli pulların yuyulması və s. məsələlərdə hallanması, artıq bur neçə gündür ki, çoxsaylı müzakirələrə səbəb olmaqdadır. Çoxları Arif Hacılını hədəf kimi götürərək, partiyanın Avropadakı fəaliyyətindəki sui-istifadələri - saxta arayışların verilməsi və s. məsələləri pisləyir, onun istefasını tələb edirlər.***

### Tural Abbaslı: "Bizim qaldırdığımız səsləri öz qıt təfəkkürləri ilə yanlış analiz edib, üzərimizə gəlirdilər"

"Ağ Partiya"nın sədri, keçmiş Müsavat funksioneri Tural Abbaslı cərəyan edən hadisələrlə bağlı bildirib ki, Müsavat və müsavatçılıq kimi kəlmələrin insan alveri, miqrant qalmaqalı, çirkli pulların yuyulması, casusluq kimi ifadələrlə bir arada işlənməsi utancvericidir. "...Bu gün sübut olunur ki, biz o zaman tam haqlı idik" deyə xatırladan T.Abbaslı mövzunu partiyanın 2014-cü ildə baş vermiş qalmaqallı və istefalarla nəticələnmiş qurultayına da yönəldib. "Düşünürəm ki, zamanında istər partiya daxilində, istərsə də ictimai-siyasi sektorda bizim dediklərimizə qulaq verilsəydi, partiya bu vəziyyətdə olmazdı. Zamanında bəziləri bizim qaldırdığımız səsləri öz qıt təfəkkürləri ilə yanlış analiz edib üzərimizə gəlirdilər" deyə sabiq müsavatçı bildirib.

### İlham İsmayıl: "Arif Hacılının özü cavabdehdir"

Müsavatın sabiq divan üzvü İlham İsmayıl bildirib ki, əgər irəli sürülən ittihamlar təsdiqini tapacaqsa, A.Hacılının istefa verməkdən başqa yolu qalmayacaq." "Sübut olunsa ki, partiya başqanı saxta arayışlar verib, o zaman A.Hacılının özü cavabdehdir. Amma istənilən halda, təəssüfedici hallar partiyada var" deyə o, baş verənlərdən təəssüf hissi keçirdiyini gizlətməyib. Bu amil isə, isbat edir ki, partiya daxilində, həqiqətən də, kəskin qarşıdurmalar və qruplaşma maraqları uğrunda çarpışmalar baş verir. A.Hacılı isə nə bu, nə də digər problemləri həll edə bilmək iqtidarında deyil. Daha dəqiq desək, miqrant alveri, mühacir biznesi və s. kimi faktların ifşası onun vəziyyətini qəlizləşdirib və dalana dirəyib.

### Akif Nağı: "Bu vəziyyətin yaranmasında İsa Qəmbərin də günahı var"

Digər sabiq divan üzvü, hazırda "Qarabağ Azadlıq Təşkilatı"nın sədri Akif Nağı da A.Hacılının başqanı olduğu partiyanın belə bir çirkin olaylarda adının hallanmasından təəssüf və hiddət hissi keçirdiyini bildirib və qeyd edib ki, bu gün Müsavat gündəmdə qalmaq uğrunda çarpışır. Lakin digər ittihamçılardan fərqli olaraq, A.Nağı Müsavatın belə bir duruma düşməsində keçmiş başqan İsa Qəmbərin də günahının az olmadığını etiraf edib. "Bu vəziyyətin yaranmasında İsa Qəmbərin yanlış qərarlarını, həmçinin, bir sıra funksionerlərin, səhv olaraq, partiyadan uzaqlaşmasının təsirini həlledici hesab edirəm" deyə A.Nağı bildirib.

Beləliklə, bütün işarələr, bilavasitə A.Hacılının istefasına doğru yönəlib və belə davam edəcəyi halda, Müsavat başqanının, hələ ki, üzüsulu tərzdə kreslosunu tərk etməyə vaxtı var.

*Rövşən NURƏDDİNOĞLU*

# Qurban Məmmədov qardaşı Sərdar Cəlaloğlunun həbsini istədi

## Müsavat və AXCP ilə yanaşı, ADP rəhbərliyi də saxta sənəd alverində ittiham olundu

***Müsavat partiyası rəhbərliyinin miqrant alveri ilə bağlı ittiham olunması prosesi Avropada yaşayan müxalifət təmsilçiləri tərəfindən də müzakirə obyektinə çevrilib. "Azərbaycan Xalq Hərəkatı"nın idarə heyətinin üzvü və parçalanmış qanadının İngiltərədəki təmsilçisi olan Qurban Məmmədov müsavatçılarla yanaşı, AXCP sədri olan Əli Kərimlini, eləcə də ADP sədri, doğma qardaşı Sərdar Cəlaloğlunu da bu kimi kirli məsələlərə bulaşdığını mətbuat vasitəsi ilə bəyan edib. Müstəqil qəzetlərdən birinə ("Yeni Müsavat"a) müsahibə verən Q.Məmmədov bir sıra kəskin ittihamlarda bulunaraq tələb edib ki, nəinki Müsavat və AXCP, eləcə də, ADP rəhbərliyi məsuliyyətə cəlb olunmalıdırlar. Belə ki, bütün bu deyilənlər real faktlardır.***

### "Bir azdan görəcəksiniz ki, Almaniyadakı əməliyyatları Fransada və Hollandiyada da başlayacaqlar"




"Bundan bir müddət qabaq, efirdə özüm də "mühacir biznesi" haqda danışmışam, belə hallar olduğunu, saxta yolla sığınacaq alanların olduğunu bildirmişəm" xatırlatmasını edən Q.Məmmədov, onu da etiraf edib ki, şəxsən ona ayrı-ayrı vaxtlarda saxta mühacirlərlə bağlı məlumatlar daxil olub. Lakin o, qarşıda daha ciddi faktların ortaya çıxacağını da istisna etməyərək, saxta mühacir və sənəd alverçilərinin Avropanın digər ölkələrində də ifşa olunacaqlarını istisna etməyib: "Söhbət saxtakarlıqdan gedir. Bir azdan görəcəksiniz ki, Almaniyadakı əməliyyatları Fransada və Hollandiyada da başlayacaqlar".

### "Arif Hacılı çoxdan istefa verməli idi və bu işlərlə əlaqədar cinayət işi başlamalıydı"

Digər bir sıra müxalifət funksionerləri kimi, Q.Məmmədov da A.Hacılının istefa vermək məcburiyyətində olduğunu bildirib. Baxmayaraq ki, Müsavat başqanı konfrans keçirib, həmin tədbirində ona və ətrafına qarşı guya ki, saxta ittihamların irəli sürüldüyünü desə də, faktlar onun dediklərinin üzərindən çarpaz xətlər çəkir. Daha dəqiq desək, A.Hacılı, əslində, dalana dirəndiyinin fərqindədir. Bu baxımdan, "Arif Hacılı çoxdan istefa verməli idi və bu işlərlə əlaqədar cinayət işi başlamalıydı" deyən Q.Məmmədov, əlavə edib ki, burada söhbət şəbəkədən getmir, sadəcə, Almaniya Müsavat partiyasına verilib, Fransa və Hollandiya isə AXCP-yə. Onun iddiasına görə, hətta bəzi QHT-lər də, bu kimi saxtakarlıq işləri ilə məşğuldurlar.

### "Hətta özlərini erməni kimi təqdim edənlər var"

"AXH" təmsilçisi hazırda yaşadığı İngiltərədə də saxta yolla miqrant statusu almış insanların yaşadıqlarını bildirib. "İngiltərədə də 100 faiz var. Məsələn, bir dəfə Qurban Məmmədov adlı adam mənim adımdan sığınacaq istəmişdi" deyə o öz müsahibəsində qeyd edib: "Ümumiyyətlə, Azərbaycandan Avropaya 800 minə qədər miqrantın getdiyi deyilir. Onlar guya siyasi mühacirdirlər və hansısa təzyiqlərlə üzləşiblər. Əgər ölkədə 800 min mühacir olubsa, Azərbaycan belə vəziyyətdə ola bilməzdi. Deməli, həmin adamlar saxta yolla gəliblər. Hətta deyim ki, özlərini erməni kimi təqdim edənlər var. Bəzi QHT-lər və diplomatik korpusların nümayəndələri təqdimatlar veriblər ki, guya Azərbaycanda yaşayan ermənilərdir, onlara ölkədə təzyiqlər olub, buna görə də, gəliblər".

Beləliklə, sözügedən məsələ günlər keçdikdə, daha da aktuallaşır və göründüyü kimi, artıq radikallıqları ilə seçilən müxalifət nümayəndələri belə, baş verənləri istisna etmir, əksinə, saxta mühacir, yaxud miqrant biznesinin görünməyən tərəflərini ictimailəşdirirlər. Bütün bunlardan sonra isə, Q.Məmmədovun hətta qardaşı - ADP sədri S.Cəlaloğlunu da bu məsələlərdə günahlandırması isə, artıq düşərgədə vəziyyətin nə qədər gərgin olduğunu göstərir.

*Rövşən RƏSULOV*

# Dünya Səhiyyə Təşkilatı: uşaq və gənclər getdikcə daha az hərəkət edirlər

***Dünya Səhiyyə Təşkilatının (DST) rəyinə görə, uşaq və gənclər hər gün bir saat hərəkətdə olmalıdırlar. Sağlamlıq və inkişaf üçün mühüm olan bu aktivliyin azalması isə bütün dünyanı əhatə edən bir trendə çevrilir.***



AZƏRTAC xəbər verir ki, dünya üzrə 11-17 yaşlıların yalnız beşdəbiri gündəlik bir saatlıq hərəkət rejimini həyata keçirir. Beynəlxalq təşkilatın hazırladığı hesabata görə, 2016-cı ildə oğlanların 71,2 faizi, qızların isə 84,5 faizi yetərincə fiziki aktivliyə malik olmayıblar. Hesabatın həmmüəlliflərindən biri olan Lenni Rayli bildirib ki, cəmiyyətdə baş verən "elektronik inqilab", ilk növbədə, yeniyetmələrin hərəkətliliyini deformasiyaya uğradıb. Hazırda yeniyetmələr aktiv hərəkət etməkdənsə, daha çox oturmağa, hansısa məsafəni piyada getməkdənsə, daha çox nəqliyyat vasitələrindən istifadəyə üstünlük verirlər. Həmçinin uşaq və gənclərin aktiv oyunlar əvəzinə rəqəmsal oyunlara meyilliliyinin artması da yeni nəslin əsas bəlaları sırasındadır.

Hesabatda, həmçinin qeyd edilir ki, uşaq və yeniyetmələrin az hərəkət etməsini bəzi regionlardakı təhlükəsizliklə də əlaqələndirmək olar. Bir sıra regionlarda və yaşayış mühitində asudə vaxtı açıq havada deyil, evdə və qapalı ərazilərdə keçirmək, məktəbə piyada deyil, nəqliyyat vasitələri ilə getmək daha təhlükəsiz hesab edilir.

Dünya Səhiyyə Təşkilatına görə, 5-17 yaşlı uşaq və yeniyetmələr hər gün azı 60 dəqiqə aktiv hərəkətdə olmalıdırlar. Bundan daha artıq aktiv hərəkət sağlamlıq üçün faydalıdır. Orta və yaşlı nəsil isə (18-64 yaş) həftədə azı 150 dəqiqə hərəkətdə olmalı və ya alternativ olaraq ən azı 75 dəqiqə idmanla məşğul olmalıdır.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fizika müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Mustafazadə Nərgiz Ramin qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Məmmədov Rövşən Bəylər oğluna məxsus 90 JA766 nömrəli Ural markalı avtomobilin texniki pasportu itdiyi üçün etibarsız sayılır.

MİDA

# Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin ilk layihəsi - Yasamal Yaşayış Kompleksində mənzillərin güzəştlə satışı barədə

# ELAN

Bakı şəhəri, Yasamal rayonu, Xarici dairəvi yolu, 8 ünvanında yerləşən Yasamal Yaşayış Kompleksinin 22 saylı binası üzrə 1 mənzil, 23 saylı binası üzrə 54 mənzil, 24 saylı binası üzrə 58 mənzil, 25 saylı binası üzrə 60 mənzil, 26 saylı binası üzrə 15 mənzil və 27 saylı binası üzrə 60 mənzilin, ümumilikdə 248 mənzilin satışı 25 dekabr 2019-cu il tarixində saat 11:00-da başlayacaq və 30 dekabr 2019-cu il tarixi saat 11:00-dək davam edəcəkdir.

"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"na uyğun olaraq **gözləmə qaydasında mənzillərin seçimi** 27 dekabr 2019-cu il tarixində saat 11:00-da başlayacaq və 30 dekabr 2019-cu il tarixi saat 11:00-dək davam edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 1113 nömrəli Fərmanına əsasən Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi "Elektron hökumət" portalı üzərində (www.e-gov.az) "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

Yalnız "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdir. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq, mənzillərin seçimində bərabər hüquqa malikdir.

"Güzəştli mənzil" sistemindən istifadə qaydası ilə bağlı ətraflı məlumatla, o cümlədən mətn və video formatlı təlimatlarla www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış olmaq mümkündür.

### Satışa çıxarılan mənzillər barədə ümumi məlumat:

Satışa ümumilikdə 248 mənzil çıxarılır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi isitmə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz və elektrik sayğacları ilə təmin edilmiş vəziyyətdə təklif olunur.

Bütün binalar Azərbaycan Respublikasının Dövlət Tikinti Normalarına (AzDTN) uyğun layihələndirilib və inşa olunub. Bununla bağlı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinin 17.03.2017-ci il tarixli 23364 nömrəli müsbət rəyi mövcuddur.

**Mənzillərə dair Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhər ərazi idarəsi tərəfindən mülkiyyət hüquqlarının qabaqcadan qeydiyyatı barədə arayışlar verilmişdir.**

| Bina № | Binanın yerləşdiyi torpaq sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 22 | 441,56 | 12 | 1 | 1 | 1 | 31,50 | 40,12 | "MƏK-AN" MMM / Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi 26N. | 22 dekabr 2018-ci il |
| 23 | 441,56 | 12 | 1 | 1 | 6 | 31,50-33,01 | 40,12 | "Merkuri-İnşaat" MMC ("Conco" MMC ilə konsorsium) / Bakı şəhəri, Xətai rayonu, Babək prospekti, ev 64,mənzil 143 | 11 dekabr 2018-ci il |
| | | | | 2 | 24 | 56,85-57,87 | 70,44 | | |
| | | | | 3 | 24 | 69,80-70,46 | 84,47 | | |
| 24 | 645,25 | 9 | 2 | 1 | 9 | 33,10-33,37 | 40,52 | | |
| | | | | 2 | 46 | 50,18-55,02 | 60,10-66,91 | | |
| | | | | 3 | 3 | 69,08-69,68 | 84,47 | | |
| 25 | 441,56 | 12 | 1 | 1 | 12 | 31,50-33,01 | 40,12 | "HN Constrution" MMC ("Xumar-98" MMC ilə konsorsium) / Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi şossesi, ev 185, mənzil 14 | 1 mart 2019-cu il |
| | | | | 2 | 24 | 56,85-57,87 | 70,44 | | |
| | | | | 3 | 24 | 69,80-70,46 | 84,47 | | |
| 26 | 645,25 | 9 | 2 | 1 | 2 | 33,10 | 40,52 | "HN Constrution" MMC / Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi şossesi, ev 185, mənzil 14 | 18 iyun 2019-cu il |
| | | | | 2 | 13 | 50,12-55,02 | 60,10-66,91 | | |
| 27 | 441,56 | 12 | 1 | 1 | 12 | 31,50-33,01 | 40,12 | "Kat Holding" MMC / Xətai rayonu, İzzət Orucova küçəsi, 1 | 30 dekabr 2018 |
| | | | | 2 | 24 | 56,85-57,87 | 70,44 | | |
| | | | | 3 | 24 | 69,80-70,46 | 84,47 | | |

### Satış şərtləri və qiymətlər:

Bu elan çərçivəsində mənzillərin satışı həm **ipoteka kreditindən istifadə etməklə**, həm də **öz vəsaiti hesabına** ödəniş üsulu ilə nəzərdə tutulmuşdur.

***Qeyd:*** *"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 5.6-cı bəndinə əsasən mənzilin dəyərinin* ***ipoteka krediti hesabına ödəniş üsulunu yalnız ilkin razılıq qərarını alaraq elektron kabinetində yerləşdirilməsini təmin etmiş şəxs seçə bilər.***

1 otaqlı mənzillərin qiyməti – **29 925** manatdan,
2 otaqlı mənzillərin qiyməti – **47 614** manatdan,
3 otaqlı mənzillərin qiyməti – **65 626** manatdan başlayır.

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Vətəndaş mənzili Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun güzəştli ipoteka krediti vəsaiti hesabına aldıqda:

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | | |
|---|---|---|---|---|---|
| | | | *1 otaqlı* | *2 otaqlı* | *3 otaqlı* |
| 4% | 3-30 il | 10% | **129-136 manat** | **205-236 manat** | **282-288 manat** |
| * Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda. | | | | | |

**DİQQƏT! Mənzilə güzəştli ipoteka krediti vasitəsilə sahib olmaq istəyən vətəndaş minimal ilkin ödənişdən artıq ödənilən məbləğə görə, mənzilin satış qiymətini tam həcmdə öz vəsaiti hesabına birdəfəlik ödəyən vətəndaş isə bütün məbləğə əlavə 10% endirim əldə edəcək.**

**Mənzilə öz vəsaiti hesabına birdəfəlik ödəniş edərək sahib olmaq istəyən vətəndaş üçün mənzillərin satışı aşağıdakı qiymətlərdən başlayır:**

| Otaqların sayı | Mənzilin qiyməti (manatla) | Əlavə endirim məbləği (manatla) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manatla) |
|---|---|---|---|
| 1 | 29 925 | 2 992 | **26 933** |
| 2 | 47 614 | 4 761 | **42 853** |
| 3 | 65 626 | 6 563 | **59 063** |

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Yasamal Yaşayış Kompleksinin **www.yasamal.mida.az** internet səhifəsinə daxil olaraq satışa çıxarılan hər bir mənzilin (və otaqlarının) dəqiq ölçüsü, qiyməti, tətbiq edilən güzəştlər və əlavə endirimlər, agent banklar haqqında məlumatla tanış olmaq, habelə ipoteka və güzəştli mənzil kalkulyatorları vasitəsilə müvafiq hesablamalar aparmaq mümkündür.

Güzəştlə mənzil əldə etmək hüququ olan şəxslər, mənzili güzəştlə əldə etmək üçün ərizənin təqdim olunması qaydası, gözləmə qaydasında mənzillərin seçimi və mənzillərin satış şərtləri, agent banklar barədə ətraflı məlumatla **www.mida.gov.az** və **www.mida.az** internet səhifələrində və ya müvafiq "ASAN xidmət" mərkəzlərinə (1, 3, 5 saylı və Sumqayıt), habelə "108" çağrı mərkəzinə müraciət edərək tanış ola bilərlər.

***Qeyd:*** *"Güzəştli mənzil" sisteminin istifadəçiləri satış modulundan istifadəyə dair və gözləmə qaydasında mənzil seçiminə dair təlimatlar ilə öz elektron kabinetlərinin müvafiq bölmələrində və ya www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış ola bilərlər.*

# "Bundan sonra müxaliflərin siyasətdə qalmaları biabırçılıq olar"

## *İctimai fəallar adları miqrant alverində və digər qanunsuz əməllərdə çəkilən müxalif partiya sədrlərini istefaya çağırdılar*

***Bəlli olduğu kimi, xaricdəki söyüş qrupunun fəal üzvləri qanunsuz əməllərlə məşğul olduqları üçün Almaniya polisi tərəfindən həbs olunublar. Bu isə, həm də Azərbaycandakı müxalifətin ifşası deməkdir. Çünki həmin xaricdəki söyüş müxalifətini saxta partiya vəsiqələri ilə təmin edib, Avropaya göndərən, məhz müxalifət rəhbərliyi olub. Söhbət etdiyimiz müsahiblərimiz söyüş müxalifətinin ifşa olunmasının Azərbaycanın müəyyən xarici qüvvələrə bağlı olan partiya sədrlərinin siyasi iflası olacağını bildirdilər.***

### "Yurddaş" partiyasının sədri Mais Səfərli: "Adları miqrant alverində çəkilən müxalif şəxslər istefa verməlidirlər"



- Faktlara istinadən demək olar ki, Əli Kərimli, Arif Hacılı, Cəmil Həsənli və müxalifət düşərgəsində təmsil olunan digər şəxslər çoxdan siyasətdən tamamilə çıxıb getməli idilər. Nəyə görə? Çünki bunların xalq tərəfindən heç bir dəstəyi yoxdur. Yəni adları çəkilən qüvvələr tamamilə Azərbaycan xalqının dəstəyini itiriblər. Artıq bunların fəaliyyətsizliyi və xalqa zidd siyasət aparmaları səbəbindən, rəhbərlik etdikləri partiyaların strukturları dağılıb. Ölkədə keçirilən bütün seçkiləri də uduza-uduza gəlirlər. Amma görünür, adları çəkilən şəxslər üçün siyasətdə qalmaq bir yaşam tərzidir, gəlir mənbəyidir və bunların əlindən başqa bir iş gəlmir. Bu gün həmin radikal partiyalarını və onların liderlərinin adları çox ciddi bir qalmaqalda hallanır. Bu, təkcə siyasi qalmaqal deyil, burda cinayət tərkibli məsələ də var. Düşünürəm ki, adları miqrant alverində və digər qanunsuz əməllərdə çəkilən müxalif şəxslər istefa verməlidirlər. Təbii ki, bu şəxslərin istefa verməşləri heç də onları hüquqi məsuliyyətdən azad etmir. Yəni onların hüquqi məsuliyyətinə baxılmalıdır. Çünki bu, çox ciddi bir məsələdir, Azərbaycanın imicinə zərər vurur. Mətbuatdan oxuyuruq ki, yüzlərlə insan ifşa olunmuş həmin çetenin vasitəsi ilə siyasi mühacir statusu alıbdır. Belə çıxır ki, guya Azərbaycanda insanların hüquqları pozulur, guya Azərbaycanda şərait yoxdur. Əlbəttə ki, burda kimin günahı varsa, hər biri öz cəzasını çəkəcəkdir. Demək olar ki, bu, birbaşa onların xisləti açıb cəmiyyətə göstərir. Bundan sonra müxaliflərin siyasətdə qalmaları çox böyük bir biabırçılıq olar.

### Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli: "Bunu birbaşa Almaniya hökumətinin hüquq-mühafizə orqanları deyir"



- Müxalif söyüş qrupunun üzvləri, təbii ki, Azərbaycandakı radikal müxalifət rəhbərliyinin zəmanəti əsasında Avropaya gediblər və o zəmanət əsasında da məkrli qüvvələr tərəfindən qəbul olunublar. Yəni siyasi mühacir olmağın şərtlərindən biri bu partiyaların onlara siyasi mühacirətə getmək məcburiyyətində qalması haqqında arayış verməsi ilə başlayır. Onlar zəmanət verirlər. Uzun illərdi ki, bunu Azərbaycan hökuməti və Azərbaycandakı ictimai fəallar deyirlər. Amma o partiyalar bunu etiraf etmək istəmirlər. Budəfəki fakt budur ki, bunu Azərbaycan hökuməti və ya Azərbaycandakı ictimai fəallar yox, birbaşa Almaniya hökumətinin hüquq-mühafizə orqanları deyir. Təbii ki, bu məsələ dərindən araşdırılmalıdır. Çünki o insanlar xaricə özbaşlarına getməyiblər, onlar müəyyən partiyaların və təşkilatların zəmanəti əsasında gediblər. Kimlər verib onlara o zəmanəti, kimlər təşkil edib bu işi, hansı maraqlar qarşılığında ediblər. Bu məsələlər geniş şəkildə araşdırılmalıdır və ölçü götürülməlidir. Çünki ora gedəndən sonra birbaşa onların əksəriyyəti anti-Azərbaycan fəaliyyəti göstəriblər. Xarici pozucu dairələrin göstərişi ilə bizim xalqımıza və dövlətimizə qarşı istifadə olunublar. Ona görə də, bu məsələlərlə bağlı müxalif partiyalar müəyyən cavabdehlik daşıyırlar. Onları bu yola təhrik edən şəxslər, partiyalar, təşkilatlar və onlara zəmanət vermiş şəxslər haqqında, istənilən halda araşdırılma aparılmalı və hüquqi ölçü götürülməlidir. Ona görə ki, bu proses bitməyib və siyasi mühacir adı ilə xarici ölkələrə indi də gedirlər. Bir sözlə, bu məsələ geniş araşdırılmalıdır.

### TOHGMİB-nın sədri Emin Həsənli: "Söyüş qrupunun həbsi müxalifətin ifşası deməkdir"



- Heç kəsə sirr deyil ki, güclü və inkişaf etmiş Azərbaycan dövlətinin uğurlarına qısqanclıq hissi ilə yanaşan qüvvələr var. Bu qüvvələr həm daxildə, həm də, xaricdə mövcuddur. Burada mühacir adı ilə gedən həmin şəxslər ölkəmiz haqqında xoşagəlməz fikirlər səsləndirir, şər və böhtanlar yayırlar. Təbii ki, həmin müxalif söyüş qrupu təhqir və böhtanlarını özləri, öz ağılları ilə etmirlər. Onları bu kimi anormal vasitələrdən istifadə etməyə təhrik edən məkrli qüvvələr var. Hansı ki, həmin pozucu qüvvələr ölkəmizin əldə etdiyi uğurlardan ciddi narahatçılıq keçirirlər. Söyüş qrupuna qəpik-quruş ödəməklə onları Azərbaycanımızın uğurlarına kölgə salmağa təhrik edirlər. Artıq onların bir qrupu qanunsuz əməllərlə məşğul olduqları üçün Almaniya polisi tərəfindən həbs olunublar. Onların əksəriyyəti, Azərbaycan müxalifət partiyaları tərəfindən saxta partiya vəsiqələri verilərək, xaricə göndəriliblər. Bu baxımdan, demək olar ki, xaricdə həbs olunan söyüş qrupunun qanunsuz əməllərinə görə, AXCP və Müsavat kimi partiyalar da məsuliyyət daşıyırlar. Bu partiyaların rəhbərliyi də, baş verən hadisəyə görə istintaq cəlb edilərək, dindirilməli və layiq olduqları cəzanı almalıdırlar. Xaricdəki söyüş qrupunun həbsi, əslində, Azərbaycandakı müxalifətin ifşası deməkdir. Çünki həmin xaricdəki söyüş müxalifətini saxta partiya vəsiqələri ilə təmin edib, Avropaya göndərən, məhz müxalifət rəhbərliyi olub. Əlbəttə ki, bu işdə kimin əli varsa, mütləq cəzalanacaqdır. Çünki adları çəkilən şəxslər çox ciddi hüquqi yanlışlıqlara, səhvlərə və cinayət əməllərinə yol veriblər.

### Korrupsiyaya qarşı Mübarizə Fondunun prezidenti Namiq Axundov: "Xaricdəki müxalif söyüş qrupundan istifadə edilir"

- Xaricdə bəzi qüvvələr var ki, Azərbaycan dövlətinin əldə etdiyi uğurlara qısqanclıq hissi ilə yanaşır və bu uğurlara kölgə salmaq üçün xaricdəki müxalif söyüş qrupunda istifadə edirlər. Əlbəttə ki, xaricdə olan söyüş qrupunun ölkəmizlə bağlı reallığı özündə əks etdirməyən və xoşagəlməz fikirlər səsləndirmələri, heç də yaxşı hal deyil. Bu işdə kimin nə günahı varsa, öz cəzasını çəkəcəkdir. Tam əminliklə demək olar ki, söyüş qrupunun xaricdə qanunsuz əməllərinə görə, həbs olunmaları Müsavat, AXCP və "Milli Şura" rəhbərliyinin ifşası deməkdir. Bu məsələdə Əli Kərimli, Arif Hacılı, Cəmil Həsənli və digərləri də məsuliyyət daşıyırlar. Çünki məhz bu şəxslər xaricdə mühacir adı ilə çıxış edən şəxslərin saxta partiya vəsiqələri ilə təmin olunmalarında rolları olub. Bu baxımdan, söyüş qrupunun qanunsuz əməllərinə görə Müsavat, AXCP və "Milli Şura" da məsuliyyət daşıyır. Əgər hüquq-mühafizə orqanlarının araşdırması nəticəsində xaricdəki işbazların burdakı partiya sədrləri ilə birbaşa əlaqələri olduğu öz təsdiqini taparsa, onda hər kəs qanun qarşısında cavab verəcəkdir.

**GÜLYANƏ**

## Paraqvayda hərbi helikopter qəzaya uğrayıb

Paraqvay Hərbi Hava Qüvvələrinin Narkotik Vasitələrlə Mübarizə İdarəsi (SENAD) ilə çalışan helikopteri ölkənin şərqində yerləşən Pedro-Juan-Kabalyero şəhərində qəzaya uğrayıb. "ABC Color" nəşrinin yazdığına görə, helikopter anbarın üzərinə düşüb və bina ilə birgə yanıb. Yerli yanğınsöndürmə idarəsi alovla mübarizə üçün qonşu Braziliyadan yardım istəyib.

İnsident zamanı helikopterin göyərtəsində on nəfər, o cümlədən Paraqvay Hərbi Hava Qüvvələrinin ilk qadın pilotu Lilian Moskeyra olub. Onlardan heç biri ciddi xəsarət almayıb.

## Binəqədidə ölümlə nəticələnən yol qəzası baş verib

Binəqədi rayonunda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, rayonun Biləcəri qəsəbəsi ərazisində Bakı şəhər sakinləri İ.Abdullayevin və M.Kazımovun idarə etdikləri "Mercedes" markalı avtomobillər toqquşub. Nəticədə İ.Abdullayevin avtomobilində olan sərnişinlər - paytaxt sakinləri Surxay Abbasov və Kifayət Məmmədova hadisə yerində ölüb, özü və digər sürücü xəstəxanaya yerləşdiriliblər. Hadisə ilə bağlı Binəqədi Rayon Polis İdarəsi tərəfindən araşdırma aparılır.

## DİN: Borclu şəxs qismində axtarılan 13 nəfər saxlanılıb

Ötən gün ərzində törədilmiş 16 cinayətin üstü respublikanın daxili işlər orqanları tərəfindən "isti izlər"lə açılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlki dövrlərdən bağlı qalmış səkkiz cinayətin açılması təmin olunub. Axtarışda olduğuna görə ümumilikdə 22 nəfər, o cümlədən mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə 1 nəfər, borclu şəxs qismində axtarılan 13 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib. Respublikanın avtomobil yollarında baş vermiş bir ağır yol-nəqliyyat hadisəsi nəticəsində iki nəfər ölüb, iki nəfər xəsarət alıb. Daxili işlər orqanları əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 11 fakt müəyyənləşdirilib. Cinayət törətməkdə şübhəli bilinən 23 nəfər saxlanılıb.



# Azərbaycan vətəndaşlarının milli birliyində inteqrasiya prosesinin rolu

İnteqrasiyaya yardım edən səbəblər aşağıdakılardır:

X Azərbaycanda hakimiyyətin Azərbaycan xalqına mənsub olduğu

demokratik dövlət qurulmuşdur;

X Azərbaycan get-gedə dünya birliyinə daha dərindən nüfuz edir, hüquqi dövlət qurur, insan hüquqlarının və demokratik azadlıqların qorunmasının təmin olunmasına riayət edir;

X Ölkədə yaşayan azərbaycanlıların və milli azlıqların, eləcə də, bir-biri ilə qarşılıqlı əlaqədə olan ayrı-ayrı insanların təhlükəsizliyi və rifah halı yaxşılaşdırılır;

X Azərbaycanda milli və sosial cəhətdən inteqrasiya etmiş insanların birliklərinin yaradılmasına mane ola biləcək heç bir ziddiyyət mövcud deyildir;

X Həm sosioloji tədqiqatların göstərdiyi, həm də hər kəsin qeyd etdiyi kimi, millətlərarası münasibətlərdə heç bir gərginlik yoxdur. Müxtəlif dostluq, iş əlaqələri və qarışıq ailələr Azərbaycanda geniş yayılmış hallardır;

X Qeyri-azərbaycanlıların inteqrasiyasının əsas göstəricisi Azərbaycan dilini bilmələridir;

X İqtisadi yüksəliş cəmiyyətin inteqrasiyasına daha çox diqqət ayırmağa imkan verir;

X Qanunvericilik inteqrasiyanın vacib tərkib hissəsi olan naturallaşdırmanın dəqiq amillərini müəyyənləşdirir.

İnteqrasiya prosesində Azərbaycan vətəndaşlarını birləşdirən amillər aşağıdakılardır:

X İnsani və mədəni dəyərlər;

X Demokratik və hüquqi dövlət;

X Hər kəsin rifah, mehribanlıq və təhlükəsizlik şəraitində yaşamaq istədiyi ümumi ərazi;

X Müxtəlif millətlərə mənsub insanlar arasında xoş ünsiyyəti qorumaq cəhdi;

X Azərbaycan təbiətinin qorunması və mühafizəsi ilə bağlı qayğı;

X Hər kəsin öz uşağına yaxşı təhsil və tərbiyə vermək cəhdi;

X Azərbaycanın nümayəndələri olan müxtəlif millətlərdən olan insanların - idmanda, mədəniyyət festivallarında, müsabiqələrdə qələbələri və nailiyyətləri.

Qanunun aliliyi vətəndaş inteqrasiyasının təmin olunmasında strateji istiqamətlərdən biridir və etnik, dini, mədəni və dil zəminində ayrı-seçkiliyə qarşı effektiv mexanizmlərin yaradılmasını nəzərdə tutur.

Burada əsas vəzifələr aşağıdakılardan ibarətdir:

1. Azərbaycan qanunvericiliyinin Azərbaycanın beynəlxalq öhdəliklərinə uyğunlaşdırılması.

2. Ədliyyə sisteminin azlıqlar üçün əlçatan olmasının effektivliyinin təmin edilməsi.

3. Ayrı-seçkiliyə qarşı çıxan qanunvericiliyin gücləndirilməsi və effektiv icra olunması.

4. İrqi, dini, milli və etnik zəmində baş vermiş cinayətlərin effektiv istintaqı.

Vətəndaş inteqrasiyasının əsas dəyərlərindən biri dövlətdə baş verən proseslərdə vətəndaş iştirakıdır. Vətəndaş marağı və əhalinin dövlət həyatında iştirakı olmazsa, dövlətlə cəmiyyət, cərniyyətin müxtəlif qrupları və ayrı-ayrı fərdlər arasında nifaq yarana bilər.

Vətəndaş inteqrasiyası "aşağıların" iştirakı ilə deyil, yalnız "yuxarıdan" istiqamətləndirilərsə, uğurlu olmayacaqdır. İctimai-siyasi həyatda vətəndaşların fəal iştirakı xalqın əksəriyyətinin maraqlarına uyğundur və inteqrasiyanın dönməzliyini təmin edir. O, ölkə əhalisini birləşdirir və demokratiyanı möhkəmləndirir. Əhalinin ictimai proseslərdə daha fəal iştirakını təmin etmək üçün müxtəlif fərziyyələri, süstlüyü dəf etmək və özünə inam hissini bərpa etmək lazımdır.

Dövlətin və cəmiyyətin demokratik idarə olunması şəraitində vətəndaşların və əhali qruplarının maraqlarının qorunması üçün zəmin yaranmışdır. Yalnız öz maraqlarını dərk etmək, fəaliyyət üçün dəlillər və iştirak üçün əlverişli üsul tapmaq lazım gəlir.

Əgər əhalinin maddi vəziyyəti yaxşılaşarsa və bununla əlaqədar sosial təhlükəsizlik hissi yüksələrsə, onların siyasi inteqrasiyada iştirak etmələri mümkün olacaqdır.

Siyasi inteqrasiya sosial-siyasi dəyərlərin, maraqların və məqsədlərin yaxınlaşdırılması deməkdir. Demokratik siyasi inteqrasiya parlament quruluşu əsasında həyata keçirilir. O, parlament və hökumətdə təmsil olunmuş partiyalar öz fəaliyyətlərində demokratik fəaliyyət metodlarından istifadə etdikdə, qeyri-hökumət təşkilatları qərarların qəbulu prosesinə demokratiya üçün xarakterik üsullarla təsir göstərdikdə, fərdlər isə demokratiya üçün vacib olan vərdiş və bacarıqları mənimsədikdə baş verir.

Bu cür yaxınlaşmaya nail olmaq üçün dövlət əhalini ölkədə gedən siyasi proseslər, dövlət və onun tarixi, öz hüquqları barədə məlumatlandırmalı və maarifləndirməlidir. Eyni zamanda, dövlət xalqın vətənpərvərliyini və vətəndaş cəmiyyətində iştirak potensialını qeyri-dövlət təşkilatlarında, siyasi partiyalarda və seçkilərdə nümayiş etdirən mühit yaratmalıdır.

Fərdin ictimai həyatda iştirakını təmin edən ən əlverişli üsullardan biri qeyri-hökumət təşkilatlarında fəaliyyətini təmin etməkdən ibarətdir. QHT-nin geniş sistemi və ölkədə məqsədyönlü fəaliyyəti vətəndaş cəmiyyətinin formalaşmasına yardım göstərməkdə yanaşı, bir tərəfdən, fərdlər və qruplarla əlaqələri, digər tərəfdən isə, fərd, yaxud qrupla dövlətin əlaqələrini möhkəmləndirir.

Məhz qeyri-hökumət təşkilatlarının işində, siyasi proseslərdə, ictimai əhəmiyyətli qərarların qəbulunda iştirak müxtəlif sosial, etnik dini və dil qruplarına mənsub olmasından asılı olmayaraq, insanların Azərbaycan cəmiyyətinin üzvü olmaları hissini möhkəmləndirə bilər.

Müasir texnologiya əsrində vətəndaş iştirakı vətəndaşın yalnız öz dövlətinin sərhədlərinin hüdudlarından kənarda olduğu halda mümkündür. Bu imkanlardan xaricdə yaşayan azərbaycanlıların və Azərbaycan vətəndaşlarını vətəndaş iştirakına cəlb edilmələri üçün istifadə etmək lazımdır.

Vətəndaş inteqrasiyasına dövlətlərarası miqrasiya insanların Azərbaycandan getmələri və Azərbaycana gəlmələri təsir göstərir. Azərbaycan dövlətçiliyinin bərpası xaricdə yaşayan həmvətənlərin vətənə qayıtmaları üçün imkan yaratdı - repatriasiya prosesi başladı. Buna görə də, Azərbaycana qayıtmış insanların ölkəmizə inteqrasiyasına yardım etmək lazımdır.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***






*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 23 noyabr

# Gəncədə YAP-ın yaradılmasının 27-ci ildönümü ilə bağlı dəyirmi masa keçirilib

Noyabrın 21-də YAP Gəncə şəhər təşkilatında Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümü qeyd olunub. Dəyirmi masa formatında keçirilən tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.





Tədbirdə YAP Gəncə şəhər təşkilatının aparat rəhbəri Orxan Əhmədov çıxış edərək, Azərbaycanın müasir siyasi tarixinin ən şərəfli hadisələrindən biri olan Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümü münasibətilə tədbir iştirakçılarını səmimi qəlbdən təbrik edib, partiyanın yaranmasından, Azərbaycan dövlətçiliyinin ən ağır sınaqlar qarşısında qaldığı bir zamanda, xalqın istək və arzularının nəticəsi olaraq tarixi zərurətdən yarandığından, bu illər ərzində partiyanın əldə etdiyi nailiyyətlərdən danışıb.

YAP Gəncə şəhər təşkilatının ideoloji şöbəsinin baş məsləhətçisi Hüseyn Budaqov çıxışında qeyd edib ki, Azərbaycan bu gün tamamilə müstəqil siyasət yürüdən, öz sözü, mövqeyi və prinsipial xarici siyasəti olan dövlətdir. YAP Gəncə şəhər təşkilatı gənclər birliyinin sədri Kamran Abbasov Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan gənclər siyasətindən danışıb, xalqına və dövlətinə bağlı Azərbaycan gəncliyinin hakim partiyanın sıralarında cəmləşdiyini vurğulayıb.

DİİXİ Hİ Gəncə Şəhər Komitəsinin sədri Ülviyyə Vəliyeva, Gəncə Dövlət Universitetinin dosenti, tarix elmləri üzrə fəlsəfə doktoru Hüseyn Bəxtiyarov, Xalq artisti Məmmədəli Balayev çıxış edərək, müstəqil Azərbaycan dövlətinin qurulmasında və respublikamızın inkişafında Yeni Azərbaycan Partiyasının əvəzsiz xidmətlərindən danışıblar. Dəyirmi masa mövzu ətrafında aparılan maraqlı müzakirələrlə başa çatdırılıb.

***RÖVŞƏN RƏSULOV***

# YAP xalqımızın milli maraqlarını ifadə edən vahid və avanqard siyasi qüvvədir



***Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümü münasibətilə Quba rayonu Heydər Əliyev Mərkəzində tədbir keçirilib. Tədbirdə rayon təşkilatının fəalları iştirak ediblər. Tədbir başlamazdan öncə, Ulu Öndər Heydər Əliyevin abidəsi önünə tər çiçək dəstələri düzərək, Onun əziz xatirəsini ehtiramla yad ediblər. Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.***



Tədbiri giriş sözü ilə açan YAP Quba rayon təşkilatının sədri Yusif Abidov YAP-ın yaranma tarixinə, keçdiyi şərəfli yola nəzər salaraq, əldə etdiyi möhtəşəm nailiyyətlərdən danışıb.

O bildirib ki, partiya son dərəcə ağır və keşməkeşli günlərdə, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə yaranmışdır: "Azərbaycanın taleyini düşünən ziyalılar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və bu məqsədlə xalqın sınanmış Lideri və müdrik oğlu Heydər Əliyevin şəxsiyyəti ətrafında birləşdilər. 1992-ci il noyabrın 21-də Naxçıvanda Ulu Öndər Heydər Əliyevin Sədrliyi ilə təsis konfransı keçirildi. Konfrans Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar, partiyanın Proqram və Nizamnaməsini qəbul etdi. Konfransda Dahi Öndər Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi.

Y.Abidov onu da bildirib ki, bu gün böyük uğurlara imza atan Yeni Azərbaycan Partiyası 700 mindən artıq üzvünü öz ideyaları ətrafında birləşdirir: "Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu Yeni Azərbaycan Partiyasının fəaliyyəti ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan gündən-günə müasirləşir, güclənir, çox zəngin və qüdrətli bir dövlətə çevrilir.

Tədbirdə çıxış edənlər bildiriblər ki, bu gün Yeni Azərbaycan Partiyası xalqımızın milli maraqlarını ifadə edən vahid və avanqard siyasi qüvvəyə çevrilib. Ümumxalq partiyasına çevrilən YAP ölkənin ictimai-siyasi proseslərində yaxından iştirak edərək, xalqımızın inam gətirdiyi lider partiyadır.

***NƏZAKƏT***

# Tovuzda YAP-ın yaranmasının 27-ci ildönümü qeyd edilib

Dünən Tovuzda Yeni Azərbaycan Partiyasının yaranmasının 27-ci ildönümü qeyd edilib. Bu münasibətlə keçirilən tədbirin iştirakçıları əvvəlcə Yeni Azərbaycan Partiyasının yaradıcısı, Ümummilli Liderimiz Heydər Əliyevin şəhərin mərkəzi meydanındakı abidəsini ziyarət ediblər.



Heydər Əliyev Mərkəzində davam edən tədbiri rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov açaraq qeyd edib ki, ölkəmizin qazandığı möhtəşəm nailiyyətlərdə Ulu Öndərimizin yaratdığı və bizlərə əmanət etdiyi Yeni Azərbaycan Partiyasının müstəsna xidmətləri var: "Bu gün Ulu Öndərin ideyalarına sədaqətlə xidmət edən Yeni Azərbaycan Partiyası artıq inam partiyasına çevrilib. YAP öz lideri, Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə güclü Azərbaycan quruculuğu işində, ölkədə islahatların yeni mərhələsinin həyata keçirilməsində əzmkarlıqla fəaliyyət göstərir".

Tədbirdə Yeni Azərbaycan Partiyası Tovuz rayon təşkilatının sədri Məzahir Bayramov "Yeni Azərbaycan Partiyası ümumxalq partiyasıdır" mövzusunda məruzə ilə çıxış edərək bildirib ki, Yeni Azərbaycan Partiyası özündən əvvəl yaranmış siyasi partiyalardan fərqli olaraq xalqın istəyi və sifarişi ilə yaranmış partiyadır: "Yeni Azərbaycan Partiyasının yaranmasını xarakterizə edən iki fundamental amildən biri xalq, ikincisi isə Heydər Əliyevin timsalında şəxsiyyət amilidir. Bu gün də xalq-lider-partiya birliyi böyük güclə ölkəmizin yüksəlişinə, tərəqqisinə və vətəndaşlarımızın rifahına xidmət edir".

Tədbirdə partiya veteranı, partiyanın rayon təşkilatının yaradılması üzrə təşkilat komitəsinin üzvü Niftalı Qasımov, rayon Heydər Əliyev Mərkəzinin direktoru Humay Aslanova və gənclər birliyi şurasının üzvü Elşad Namazlı çıxış edərək, partiyamızın yaranması tarixindən, onun meydana gəlməsi zərurətindən danışıblar.

Sonda bir qrup gəncə yeni üzvlük vəsiqələri təqdim olunub.

***R.HÜSEYNOVA***

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**